# Olimpiya dünyası

www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 22 (1422), 28 may - 3 iyun 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.




## Minsk-2019-da Azərbaycan 80 idmançı ilə təmsil olunacaq

Mayın 27-də Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında Belarusun paytaxtı Minskdə təşkil olunacaq ikinci Avropa Oyunlarına həsr olunmuş mətbuat konfransı keçirilib. Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibi Ağacan Abıyev və media nümayəndələri iştirak ediblər.

Mətbuat konfransında çıxış edən MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə ölkəmizin ikinci Avropa Oyunlarında 80 idmançı ilə təmsil olunacağını bildirib. "Azərbaycan nümayəndə heyəti Minskdə ümumilikdə 170 nəfərdən ibarət olacaq. Komandada 32 məşqçi, 15 inzibati heyət üzvü və 5 tibb işçisi yer alacaq. İdmançılar arasında güləşçilər üstünlük təşkil edirlər. Qeyd edim ki, ikinci Avropa Oyunlarında ümumilikdə 4 min atlet iştirak edəcək. Atletlər 200 dəst medal uğrunda mübarizə aparacaqlar. Kişilər üçün 91, qadınlar üçün 89, qarışıq 20 yarış keçiriləcək. İdmançılar Oyunlarda 15 idman növü üzrə mübarizə aparacaqlar. Azərbaycan atletləri isə Minskdə 10 idman növündə qüvvələrini sınayacaqlar", - deyə Çingiz Hüseynzadə bildirib.

Oyunların açılış mərasiminin iyunun 21-də, bağlanış mərasiminin isə iyun ayının 30-da "Dinamo" stadionunda keçiriləcəyini deyən Milli Olimpiya Komitəsinin rəsmisi vurğulayıb ki, yarışlar 12 idman obyektində təşkil olunacaq. "İdmançılar tələbə şəhərciyi olan və Oyunlar üçün yenidən hazırlanmış Atletlər Kəndində qalacaqlar. Tutumu 6500 yerlik olan Atletlər Kəndi mayın 1-dən fəaliyyətə başlayıb", - deyə Çingiz Hüseynzadə diqqətə çatdırıb.

Qeyd edək ki, birinci Avropa Oyunlarına 2015-ci ildə Azərbaycan ev sahibliyi edib. Bakı-2015-də Azərbaycan idmançıları 56 medal (21 qızıl, 15 gümüş, 20 bürünc) qazanaraq komanda hesabında Rusiyadan sonra ikinci pillədə yer almışdılar.



## Atletimiz Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqə qazanıb

Çinin Nanjinq şəhərində keçirilən "IAAF World Challange Nanjing 2019" yarışında çəkic atma növündə çıxış edən idmançımız Anna Skidan 72.92 metr nəticə göstərərək 5-ci yerin sahibi olub. Atletimiz bu nəticə ilə Tokio-2020 Olimpiya Oyunlarına vəsiqə qazanıb.

Qeyd edək ki, Tokio-2020 Olimpiadasına lisenziya qazanmaq üçün hər atlet azı 72.50 metr nəticə göstərməlidir.

Bu yarışda iştirak edən atletimiz, Avropa çempionu Nazim Babayev isə 6-cı yeri tutub.

## Rizvan Rəsulov: "Ağırlıqqaldırmanın təməlini etibarlı şəkildə qurmalıyıq"



Səh. 4 - 5

## XV Avropa Gənclər Olimpiya Festivalına 54 gün qalır





## II Avropa Oyunlarına 24 gün qalır

## *Boksçularımız Çexiyadan 1 qızıl və 1 bürünc mükafatla qayıdırlar*

Çexiyada keçirilən boks üzrə Usti-nad-Labem Qran-Prisinə yekun vurulub.

Yarışda 4 idmançı ilə iştirak edən Azərbaycan millisi 1 qızıl və 1 bürünc medal qazanıb.

Vaqif Şirinovun yetirmələrindən Lorenzo Sotomayor (69 kq) çempion tituluna yiyələnib. Rio-2016-nın gümüş medalçısı finalda norveçli Hadi Srourla döyüşüb və rinqdən qələbə ilə ayrılıb.

Komandamızın aktivinə digər medalı isə Alfonso Dominqes (81 kq) yazdırıb. O, yarımfinalda kubalı Olimpiya çempionu, dünya çempionatının dördqat qalibi Xulio Sesar La Krusa məğlub olaraq bürünc medala sahib çıxıb.

## Cüdoçumuz Çində qızıl medal qazanıb

Çin Xalq Respublikasında cüdo üzrə Qran-pri yarışı keçirilib. Turnirdə 43 ölkədən 298 cüdoçu mübarizə aparıb. Azərbaycan beynəlxalq turnirdə 6 cüdoçu ilə təmsil olunub.

Beynəlxalq turnirin 2-ci günü Azərbaycan millisi üçün uğurlu alınıb. Belə ki, 73 kq çəki dərəcəsində mübarizə aparan cüdoçumuz Hidayət Heydərov bütün rəqiblərinə qalib gələrək Çin Qran-prisinin qızıl medalını qazanıb. Hidayət Heydərov Yunanıstan, Rusiya, Kanada, İsveç cüdoçularını məğlub edərək həlledici görüşdə Birləşmiş Ərəb Əmirliklərinin idmançısı Viktor Skvortovla qarşılaşıb. Rəqibinə ipponla qalib gələn Hidayət Bakıda təşkil olunan "Böyük Dəbilqə" turnirindən iki həftə sonra Çin Qran-prisinin də qalibi olub.

## *Velosipedçimiz olimpiada xallarını artırdı*

Ukraynanın paytaxtı Kiyevdə Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı "Horizon Park Classic" yarışı keçirilib. Birgünlük veloturda Azərbaycanın Elit yığmasının 2 üzvü - Ukraynanın və Belarusun "Lviv" və "Minsk" kontinental klublarının velosipedçiləri Elçin Əsədov və Samir Cəbrayılov da mübarizə aparıb.

Təmsilçilərimiz 112 km məsafəni 2 saat, 37 dəqiqə, 23 saniyəyə qət etməklə müvafiq olaraq 8-ci və 10-cu nəticə göstəriblər. Bununla da həm Elçin, həm də Samir ölkəmizin reytinqinə Tokio-2020 Yay Olimpiya Oyunları üçün hərəyə 3 lisenziya xalı qazandırıblar. Qeyd edək ki, Beynəlxalq Velosipedçilər İttifaqının reqlamentinə əsasən, olimpiadaya lisenziya xalları verən yarışlar 2019-cu ilin oktyabr ayının 22-dək davam edəcək.

## Anons


Milli Olimpiya Komitəsi və "Caspiantech" QSC yeni tərəfdaşlığa imza atdılar Səh. 2

*Azərbaycan komandası aero-dans proqramında Avropa çempionu oldu* Səh. 2

*Həndbolçularımız Avropa Gənclər Olimpiya Festivalına ciddi hazırlaşırlar* Səh. 2

*Bakı-2019-a həsr olunmuş rəsm müsabiqəsinə start verilib* Səh. 3

Taekvondoçuların dünya çempionatında çıxışları yüksək qiymətləndirilib Səh. 3

*Respublika çempionatı keçirilib* Səh. 6

Başa çatmış futbol mövsümünün təəssüratları Səh. 7


## Olimpizm

### Tomas Bax: "AİBA-da əsaslı dəyişikliklər etmək lazım gələcək"

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) İcraiyyə Komitəsi boks idman növünün Tokio-2020 Olimpiadasının proqramında saxlanılmasını tövsiyə edib. Beynəlxalq qurum həm də Beynəlxalq Həvəskar Boks Federasiyasının (AİBA) üzvlüyünün dayandırılmasını təklif edib.





İcraiyyə Komitəsinin qərarı BOK-un bu ilin 24-26 iyununda Lozannada keçiriləcək sessiyasında müzakirə olunacaq.

"Biz istəyirik ki, idmançılar öz arzularını reallaşdırmaq üçün bu Olimpiya oyunlarında iştirak etsinlər. AİBA-nın qarşısında tələblər qoyulub və mütləq burada əsaslı dəyişikliklər etmək lazım gələcək", - deyə BOK-un prezidenti Tomas Bax bildirib.

### Çin yığması ilk dəfə hokkey turnirində yarışacaq

Çin yığması ev sahibliyi edəcəyi Pekin-2022 Qış Olimpiadasında tarixdə ilk dəfə hokkey turnirində qüvvəsini sınayacaq.

Çin millisi ilə birgə Olimpiya turnirində Beynəlxalq Hokkey Liqasının reytinqində yer alan Kanada, Rusiya, İsveç, Finlandiya, Çexiya, ABŞ, Almaniya və İsveçrə komandaları da yarışacaqlar.

Yarışların formatı əvvəlki illərdə olduğu kimidir. 12 komanda 3 qrupa bölünəcək. Bölünmə prosesi beynəlxalq reytinqə görə aparılacaq. Yarışda iştirak edəcək daha üç komandanın adı 2019-cu ilin noyabrından 2020-ci ilin avqust ayınadək müddətdə təsnifata görə müəyyən ediləcək.



## Milli Olimpiya Komitəsi və "Caspiantech" QSC yeni tərəfdaşlığa imza atdılar

Mayın 21-də Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi (MOK) və "Caspiantech" Qapalı Səhmdar Cəmiyyəti arasında tərəfdaşlıq müqaviləsi imzalanıb. Müqaviləni MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə və "Caspiantech" QSC-nin baş direktoru Vüsal Məmmədov imzalayıblar.

Müqavilə tərəflər arasında informasiya dəstəyi və digər qarşılıqlı maraq kəsb edən sahələrdə əməkdaşlığı əhatə edir. Tərəfdaşlıq əsasında Milli Olimpiya Komitəsi "Caspiantech" QSC-nin dəstəyi ilə ölkədə qarşıdan gələn Olimpiya Oyunlarında Azərbaycan Komandasının təbliği ilə məşğul olacaq. "Caspiantech" QSC isə Milli Olimpiya Komandasının "Məğrur Tərəfdaşı" qismində çıxış etmək hüququ qazanır.

İmzalanma mərasimində çıxış edən MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə bildirib: "Caspiantech" QSC-nin Azərbaycan komandasına xüsusi diqqətlə yanaşmağı, təşkilati işlərdə dəstək göstərməyi təqdirəlayiqdir. "Caspiantech" QSC-nin qarşıdan gələn Tokio-2020 Yay Olimpiya Oyunlarında Azərbaycan komandası ilə birgə əməkdaşlıq etməsi çox xoşdur. Əminəm ki, əməkdaşlığımız məhsuldar olacaq".

"Caspiantech" QSC-nin baş direktoru Vüsal Məmmədov isə öz çıxışında Milli Olimpiya Komitəsi ilə tərəfdaşlıq əlaqələrinin yaradılmasından məmnunluğunu bildirib. "Bu gün Milli Olimpiya Komitəsi ilə tərəfdaşlıq əlaqələrinin yaradılması bizi çox sevindirir. Olimpiya Hərəkatının və idmanın ölkədə təbliği çox vacibdir. Biz hər zaman bu işdə MOK-a dəstək olmağa hazırıq. "Caspiantech" olaraq Milli Olimpiya komandasına öz töhfəmizi verə biləcəyimiz üçün çox şadıq", - deyə Vüsal Məmmədov qeyd edib.

## Bakıda "Caspian Power" idman festivalı keçirilib

***Mayın 24-də Heydər Əliyev adına İdman Sarayında "Caspian Power" idman festivalı keçirilib. Festivalın təntənəli açılış mərasimindən əvvəl Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Yarışın açılış mərasimdə çıxış edən Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb, atletlərimizin beynəlxalq arenada yüksək nailiyyətlər qazandıqlarını bildirib. Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını deyib. Bildirib ki, ölkəmiz yüksək təşkilatçılıq bacarığı ilə seçilir.***



Açılış mərasimində Milli Olimpiya Komitəsi baş katibinin müavini Azər Əliyev, kikboksinq üzrə dəfələrlə dünya və Avropa çempionu Zabit Səmədov, Fövqəladə Hallar Nazirliyinin İdman-sağlamlıq klubunun rəisi Füzuli Musayev və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş festivalda stronqmen, bodibildinq, mas-resliq, ciu-citsu və sumo üzrə yarışlar təşkil edilib. Festivalda 100-dək idmançı birincilik uğrunda mübarizə aparıb.

Turnirdə mas-reslinq üzrə yarışlarda idmançılar 90 və 105 kiloqram çəki dərəcələrində mübarizə aparıblar. 90 kq çəki dərəcəsində Xəyyam Orucov, Sultan Ağayev, Amil Qazıyev fərqləniblər. 105 kiloqram çəki dərəcəsində Cahangir Yaqubov, Aslan Quliyev və Tərxan Müzəffərov mükafata layiq görülüblər.

Sumo yarışları mütləq çəki dərəcəsində təşkil olunub. Yarışda Avropa çempionu və dünya birinciliyinin mükafatçısı Camal Feyziyev qızıl medal qazanıb. Səbuhi Hümbətov və Əmiraslan Əhmədov isə yarışı üçüncü pillədə başa vurublar. Festivalın ciu-citsu yarışlarında idmançılar 9 çəki dərəcəsində mübarizə aparıblar. Bodibildinq yarışları tamaşaçılar tərəfindən böyük coşqu ilə qarşılanıb. Əvvəlcə "Mens fizik" yarışları keçirilib. Bütün rəqiblərini qabaqlayan Kamil Əliyev festivalın qalibi olub. Bodibildinq yarışlarında isə Nizami Misirov fərqlənib.

Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilən festival çərçivəsində keçirilən stronqmen yarışları Avrasiya çempionatından ibarət olub. Yarışda dörd ölkədən yeddi tanınmış idmançı iştirak edib. Stronqmen yarışlarında ölkəmizi iki idmançı - Vüsal Mərdanov və Namiq Mehdiyev təmsil ediblər. Hər iki atletimiz 110 kiloqram çəki dərəcəsində yarışıblar. Beş mərhələnin sonunda iranlı Əkbər Talışi 28,5 xalla turnirin qalibi olub. Təmsilçilərimiz Vüsal Mərdanov 23,5 xalla gümüş, Namiq Mehdiyev isə 18,5 xalla bürünc medal qazanıblar.

"Caspian Power" idman festivalının keçirilməsində məqsəd bütün idman növləri üzrə yarışları bir idman turniri çərçivəsində keçirməklə idmanın kütləviliyini artırmaqdır.

## Azərbaycan komandası aero-dans proqramında Avropa çempionu oldu

***Mayın 24-26-da Bakıda ilk dəfə aerobika gimnastikası üzrə XI Avropa çempionatı keçirildi. Yarışlarda dünyanın 22 ölkəsindən 400-ə yaxın gimnast mübarizə apardı. İdmançılar böyük və gənc gimnast qadın və kişi, qarışıq cütlük, üçlük, qrup, həmçinin aerodans, aerostep (yalnız böyüklər) yarışlarında mübarizə apardılar.***



Azərbaycanı IX Avropa çempionatında 17 gimnastımız-Ayxan Əhmədli, Balaxanım Əhmədova, Vladimir Dolmatov, Emil Quliyev, Xoşqədəm Quliyeva, Nərminə Hüseynova, Nigar İbrahimbəyli, İmran İmranov, Akif Kərimli, Elçin Məmmədov, Mədinə Mustafayeva, Aysel Aslanzadə, Xədicə Quliyeva, Lalə Quliyeva, Fatimə Qurbanova, Emiliya Mahmudova və Eleonora Yusifova təmsil etdi.



Qaydalara əsasən, bir iştirakçı bu kateqoriyaların maksimum 3-də qüvvəsini sınadı. Komanda hesabında qaliblər isə 5 ən yaxşı çıxışa görə müəyyən edildi. Avropa çempionatının ilk iki günündə təsnifat, son yarış günündə isə final yarışları keçirildi.

Mayın 25-də Bakıda aerobika gimnastikası üzrə XI Avropa çempionatının ikinci günü maraqlı və gərgin idman mübarizəsi ilə yadda qaldı. Həmin gündə böyük gimnastlar mübarizəyə qoşuldular. Avropa çempionatında fərdi qadın proqramı üzrə təsnifat yarışlarında Azərbaycanlı gimnastlar Xoşqədəm Quliyeva 25-ci, Nərminə Hüseynova isə 31-ci pillədə qərar tutdular. Avropa çempionatında fərdi kişi proqramı üzrə yarışlarda Azərbaycan gimnastları Vladimir Dolmatov 9-cu, Elçin Məmmədov isə 18-ci yerdə qərarlaşdılar. Qarışıq cütlüklərin yarışlarında Azərbaycan komandası 17-ci pillədə yer aldı. Qrupların təsnifat yarışında Azərbaycan komandası 19,555 xalla yeddinci yeri tutaraq finala yüksəldi. 11-ci Avropa çempionatının gənclər arasında aero dans proqramında Azərbaycanın gənclərdən ibarət komandası (Aysel Aslanzadə, Xədicə Quliyeva, Lalə Quliyeva, Fatimə Qurbanova, Emiliya Mahmudova və Eleonora Yusifova) 16,225 xalla 7-ci pillədə qərarlaşdılar. Yarışların son günü gimnastlarımız üçün yadda qalan oldu. Böyüklərdən ibarət Azərbaycan komandası aero-dans proqramında fəxri kürsünün ən yüksək pilləsində yer aldı. Azərbaycan gimnastları hakimlərdən ən yüksək -17.800 xal aldılar. Rusiya 17.750 xalla gümüş medala layiq görüldü. Ruminiya 17.400 xalla üçüncü yerdə qərarlaşdı.

Azərbaycan gimnastika üzrə növbəti mötəbər tədbirə bu ilin sentyabrında ev sahibliyi edəcək. Bu dəfə Milli Gimnastika Arenası öz qapılarını bədii gimnastika üzrə dünya çempionatının iştirakçılarının və qonaqlarının üzünə açacaq.

### "Qələbə qazanacağımıza inanırdıq"

Aerobika gimnastikası üzrə Avropa çempionları və ölkəmizin aerobika gimnastikası üzrə baş




məşqçisi Mariyan Kolev yarışdan dərhal sonra qələbə təəssüratlarını bizimlə bölüşdülər:

***- Yarışda komandamıza dəstək olan azarkeşlərə minnətdarlığımı bildirmək istəyirəm.***

Azarkeşlərin dəstəyi bizim üçün çox vacibdir. Əlbəttə, bütün idmançılar səylə məşq edib, yarışa yaxşı hazırlaşıblar. Hərəkətləri sinxron şəkildə yerinə yetirərək aero dans proqramında çıxış etmək çətin məsələdir. Bizə seçdiyimiz musiqi də kömək etdi, uşaqlar ürəkdən çıxış edirdirlər.

### "Bu hissləri sözlə ifadə etmək mümkün deyil"

Yarışa çıxanda medal barədə düşünmürdük, bizim üçün vacib olan finala qədər və finalda yaxşı çıxış etmək idi. Biz istədiyimizə nail olduq. Bizi hər zaman dəstəkləyən Azərbaycan Gimnastika Federasiyasının rəhbərliyinə, eləcə də, bizə azarkeşlik edən tamaşaçılara minnətdarlığımızı bildiririk.

Bütün auditoriya bizimlə birlikdə Azərbaycan Respublikasının Dövlət Himnini səsləndirdilər. Bu hissləri sözlə ifadə etmək mümkün deyil. Düşünürük ki, bu qızıl medal bizim 28 may - Respublika Gününə bir töhfəmiz oldu.

Qeyd edək ki, Azərbaycan komandasını aero-dans proqramında Ayxan Əhmədli, Balaxanım Əhmədova, Nərminə Hüseynova, Nigar İbrahimbəyli, İmran İmranov, Akif Kərimli, Elçin Məmmədov, Mədinə Mustafayeva təmsil ediblər.

***Səadət Hakıyeva***

### Atletika hakimləri üçün növbəti seminar

Avropa Gənclər Olimpiya Festivalına hazırlıq çərçivəsində Beynəlxalq Atletika Federasiyasının, Milli Olimpiya Komitəsinin, Bakı-2019 Əməliyyat Komitəsinin və Azərbaycan Atletika Federasiyasının birgə təşkilatçılığı ilə atletika hakimləri üçün keçirilən ikinci seminara yekun vurulub.

Seminar iyulda keçiriləcək Avropa Gənclər Olimpiya Festivalına hazırlıq məqsədi daşıyıb. Sonda iyirimi səkkiz hakim imtahan verib və seminarı uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim edilib.

Seminarın lektorları baş hakim Nemət Heydərov və Kənan Məhərrəmov olub.

### Həndbolçularımız Avropa Gənclər Olimpiya Festivalına ciddi hazırlaşırlar

İyulun 21-də start veriləcək Avropa Gənclər Olimpiya Festivalı böyük həyəcan və səbirsizliklə gözlənilir. Yarışın proqramına daxil edilən idman növlərindən biri də həndboldur. Azərbaycan bu idman növü üzrə həm oğlanların, həm də qızların turnirində təmsil olunacaq.

Hər iki komandamız festivala ciddi hazırlaşır. Funksional və taktiki hazırlığın yüksək nöqtəsinə çatmağı hədəfləyən həndbolçularımız proqrama uyğun olaraq ölkədaxili və xarici təlim-məşq toplanışları, həmçinin müxtəlif turnirlərdə qüvvələrini sınayırlar ki, bu da təcrübə baxımından böyük əhəmiyyət daşıyır.

Qeyd olunub ki, Avropa Gənclər Olimpiya Festivalı iyulun 21-dən 28-dək Bakıda keçiriləcək.

### Milli Paralimpiya Komitəsində könüllülərlə görüş

Bakıda keçirilmiş paracüdo üzrə beynəlxalq Qran-Pri yarışlarının işıqlandırılmasında fəallıq göstərmiş Təhsil Nazirliyinin "BİR" tələbə-könüllü proqramının rəhbər heyəti və fiziki məhdudiyyətli könüllülər ilə Azərbaycan Milli Paralimpiya Komitəsində (AMPK) görüş keçirilib.

Görüşdə AMPK-nın prezidenti İlqar Rəhimov Qran-Pri yarışlarının yekunları barədə məlumat verib, görüş iştirakçılarına təşəkkürnamə və sertifikatlar təqdim edib.

Paracüdoçularımızın yarışda uğurla çıxış etdiklərini diqqətə çatdıran İ.Rəhimov gələn il keçiriləcək yarışın hazırlıqlarına artıq başlandığını bildirib. Ölkəmizdə könüllülər hərəkatının inkişafından danışan AMPK-nın prezidenti deyib ki, irimiqyaslı tədbirlərin təşkilini könüllülərsiz təsəvvür etmək çətindir. Onların işi çox vacib və təqdirəlayiqdir.

Qeyd edək ki, Heydər Əliyev adına İdman Sarayında keçirilən Qran-Pridə 35 ölkədən 214 cüdoçu birincilik uğrunda mübarizə aparıb. Qran-Pri Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarına lisenziya xalları qazandırıb. Azərbaycan millisi 3 qızıl, 4 gümüş və 4 bürünc medalla komanda hesabında ikinci yeri tutub.




## Bakı-2019-a həsr olunmuş rəsm müsabiqəsinə start verilib

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK), Təhsil Nazirliyinin və 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə"Olimpiya mədəniyyəti və təhsil" proqramında iştirak edən məktəblər arasında XV Avropa Gənclər Olimpiya Festivalına həsr olunmuş "İdman - sağlamlıq, dostluq, birlik" mövzusunda rəsm müsabiqəsinə start verilib.

Müsabiqədə hər yaş qrupu üzrə I, II və III yerlərə layiq görülən işlərin müəllifləri Təhsil Nazirliyinin və Milli Olimpiya Komitəsinin diplom və hədiyyələri ilə mükafatlandırılacaq.

Müsabiqənin yekun sərgisi 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzində, daha sonra isə Avropa Gənclər Olimpiya Festivalı ərəfəsində Atletlər Kəndində nümayiş etdiriləcək.

## 39 ölkənin badmintonçuları Bakıya gələcəklər

Bakı daha bir irimiqyaslı beynəlxalq yarışa ev sahibliyi etməyə hazırlaşır. Azərbaycan Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin və Azərbaycan Badminton Federasiyasının (ABF) təşkilatçılığı, Dünya Badminton Federasiyasının və Avropa Badminton Konfederasiyasının birgə dəstəyi ilə iyunun 6-9-da Bakıda "Azerbaijan International" turniri keçiriləcək.

"International Challenge" seriyalı turnirdə 39 ölkədən 220-ə yaxın idmançı mübarizə aparacaq. Bu, "International Challenge"seriyalı turnirlər üçün rekord göstəricidir. Ümumi mükafat fondu 25 min ABŞ dolları olan yarış Bakı İdman Sarayında təşkil ediləcək.



Beynəlxalq Badminton Federasiyasının təqvim planına daxil edilən, 2020-ci il Tokio Yay Olimpiya Oyunlarına reytinq xalları qazandıracaq "Azerbaijan International" turnirində beş kateqoriya üzrə qalib və mükafatçılar müəyyənləşəcək. Bu, ölkəmizdə təşkil ediləcək ilk böyük badminton turniri olsa da, ona maraq kifayət qədər böyükdür. Bunu sübut edən faktlardan biri iştirakı təsdiqlənmiş badmintonçular arasında Olimpiya mükafatçılarının olmasıdır. Bakı kortlarında fransalı Brays Leverdez, İngiltərə təmsilçiləri Markus Ellis və Kris Lanqricin imkanları daha yüksək qiymətləndirilir və onların adları favoritlər sırasında çəkilir. Amma bu, Azərbaycan paytaxtına gələcəyi təsdiqlənmiş badminton aləmində tanınmış simaların heç də tam siyahısı deyil.

Bakı yarışı, həmçinin iyunun 21-30-da Minskdə keçiriləcək II Avropa Oyunlarından əvvəl badmintonçular üçün sonuncu ciddi sınaq olması baxımından da əhəmiyyət daşıyır.

Azərbaycan bu beynəlxalq turnirdə geniş heyətlə təmsil olunacaq. Turnirdə 20 badmintonçumuz mübarizə aparacaq. Görüşləri Avropadan və Asiyadan olan 16 hakim idarə edəcək. Əsas hakimlər arasında - Fidan və Gülcənnət Hüseynli bacılarının olması sevindirici haldır.

* * *

Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) və Azərbaycan Badminton Federasiyasının (ABF) birgə təşkilatçılığı ilə antidopinq mövzusunda maarifləndirici seminar keçirilib.

Tədbirdə dinləyici qismində badminton üzrə milli komandamızın üzvləri, məşqçilər və federasiya rəsmiləri iştirak ediblər.

Seminarda antidopinq qayda pozuntuları, dopinq təhlükələri, dopinq nəzarəti prosesi haqda idmançılara ətraflı məlumat verilib.

Təhsil və təlim üzrə menecer Lalə Hacıyeva bu sahədə mövcud qaydalardan və onlara riayət olunmayacağı təqdirdə tətbiq ediləcək cəzalardan danışıb. Lalə xanım bildirib ki, idmançılar istənilən yerdə hər an heç bir xəbərdarlıq olmadan dopinq testindən keçirilə bilər. Qaydalara əsasən idmançı antidopinq qaydalarına riayət etməli, qadağan edilmiş maddə və üsullardan istifadə olunmamasını təmin etməli, müalicəni antidopinq qaydalarına zidd şəkildə aparılmadığına əmin olmalı, məkan məlumatını təmin etməlidir.

Sonra iştirakçıların sualları cavablandırılıb.

## Komandamız Avropa çempionatına hazırlaşır

Azərbaycan Yelkənli İdman Federasiyasının "Optimist" sinfi üzrə yelkənçilərdən ibarət komandası Fransada keçiriləcək Avropa çempionatına hazırlığı davam etdirir.

Yelkənçilər mayın sonunadək İzmirdə təlim-məşq toplanışında olacaqlar. Hazırlıq məşqlərində Yunanıstan, Malta, Bolqarıstan və Türkiyədən olan yelkənçilər də iştirak edəcəklər. Məşqlərə beynəlxalq və dünya yelkəni üzrə məşqçi Vagelis Atzemian rəhbərlik edəcək. Təlim-məşq düşərgəsində Azərbaycanı "Optimist" sinfi üzrə yelkənçilər Kristina Kərimova, Fidan Ağazadə, Səxavət Əzimov, Murad Hacızadə, Timur Skaçevski, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız təmsil edəcəklər.

Beynəlxalq yarışlarda ölkəmizi uğurla təmsil edən yelkənçilərimiz dəfələrlə xaricdə təşkil olunan təlim-məşq düşərgələrinə qatılıblar. Təlim-məşq düşərgələrində iştirakın əsas məqsədi idmançılarımızın beynəlxalq yarışlara hazırlıqlarının təkmilləşdirilməsi, onların taktiki biliklərinin və müxtəlif hava şəraitində təcrübələrinin artırılmasıdır.

Hazırda Azərbaycan Yelkənli İdman Federasiyasında "Optimist" və "Laser" sinifləri üzrə iki komanda formalaşıb. Bu siniflər üzrə xaricdən dəvət edilən iki baş məşqçi fəaliyyət göstərir. Komandaların məşqləri məhz xaricdən dəvət edilən idman menecerlərinin, yüksək göstəricilərə malik mütəxəssislərin köməyi ilə keçirilir.



Aktiv bazası 2014-cü ildən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi maddi-texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırmaq, Təhsil Nazirliyi ilə birgə əməkdaşlıq çərçivəsində "Optimist" sinfi üzrə 7-14 yaşlı uşaqları, "Laser" sinfi üzrə isə 14 yaşdan yuxarı yeniyetmələri idmanın bu növünə cəlb etməkdir.

## Taekvondoçuların dünya çempionatında çıxışları yüksək qiymətləndirilib

*Gənclər və İdman Nazirliyində Böyük Britaniyanın Mançester şəhərindəki dünya çempionatında uğur qazanan taekvondo üzrə böyüklərdən ibarət Azərbaycan milli komandasının üzvləri ilə görüş keçirilib.*



Görüşdə çıxış edən gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov dünya çempionatında taekvondoçularımızın parlaq qələbə qazandıqlarını bildirib. Qeyd edib ki, idmançılarımızdan birinin fəxri kürsünün ən yüksək pilləsinə qalxması, digərinin üçüncü yeri tutması, eyni zamanda, Tokio-2020 Olimpiadasına lisenziya xalları qazanması böyük uğurdur. Bu münasibətlə idmançılarımızı, məşqçilərini və federasiya rəhbərliyini təbrik edən İsmayıl İsmayılov deyib ki, 154 ölkə arasında kişilərin komanda yarışında beşinci, qadınların mübarizəsində yeddinci yeri tutmaq uğurlu nəticədir.

Nazir müavini vurğulayıb ki, Azərbaycanda idmana dövlət səviyyəsində yüksək diqqət və qayğı göstərilir. Sevindirici haldır ki, idmançılarımız dövlətimizin başçısı və Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin yüksək etimadını layiqincə doğruldurlar. Ölkəmizdə inkişafda olan idman növlərindən biri də taekvondodur. Bu gün Bakı ilə yanaşı, regionlarda da idmanın müxtəlif növləri, o cümlədən taekvondo üzrə yarışlar keçirilir. Bu yarışlar ölkəmizdə idmanın kütləviliyinin artırılmasında böyük əhəmiyyət kəsb edir. İdmanın bu növü üzrə Olimpiya, dünya çempionlarının və mükafatçılarının olması və yarışlarda qazanılan nailiyyətlər taekvondoya və idmançılarımıza qayğının bariz nümunəsidir.

Dünya çempionatının gərgin idman mübarizəsi şəraitində keçdiyini vurğulayan Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov bildirib ki, Milad Beigi Hərçəqani qızıl medal qazanmaqla öz reytinqinə 120 xal əlavə etdi. O, dünya reytinqində sıralamada da birinci yerə yüksəldi. Fəridə Əzizovanın üçüncü yeri tutması isə onun potensialını nümayiş etdirdi. Bu dünya çempionatı növbəti turnirlərə hazırlaşmaq üçün ciddi sınaq idi. Əsas məqsəd 2020-ci ildə Yaponiyada keçiriləcək Olimpiya Oyunlarına daha çox taekvondoçu ilə qatılmaqdır.

Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti Nağı Səfərov qeyd edib ki, dünya çempionatında mükafatçılarımızın sayı daha çox ola bilərdi. Üç idmançımız medal uğrunda döyüşlərdə uduzdu. Bununla yanaşı, M.Hərçəqani taekvondo üzrə ikiqat dünya çempionu olmaqla, bu idman növündə gözəl bir ənənənin təməlini qoydu. Onun final görüşünü Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer və digər fəxri qonaqlar izlədilər. Onların himnimizi dinləməsi bizə böyük qürur hissi bəxş etdi. Komandamız növbəti həftədən beynəlxalq Qran-Pri turnirlərinə hazırlıqlara başlayacaq və təlim-məşqlərə çıxacaq.

Federasiyanın vitse-prezidenti Niyaməddin Paşayev taekvondoçularımızın hazırlıq prosesi, heyətin seçilməsindən danışıb. O bildirib ki, dünya çempionatına hazırlaşmaq üçün yığma komandanın üzvləri yanvar ayından beş beynəlxalq turnirdə iştirak edib. Komandaya 54 və 63 kiloqram çəki dərəcələrində gənc idmançılar cəlb olunub. Ramin Əzizov və gənc idmançımız Cavad Ağayev yalnız yarımfinalda medal döyüşündə uduzaraq mükafatçılar sırasına düşə bilmədilər. O, Radik İsayevin və Fəridə Əzizovanın növbəti Qran-Pri yarışları vasitəsilə reytinqdə ilk beşliyə düşərək Olimpiya Oyunlarında iştirak edəcəklərinə əminliyini bildirib.

Mundialda qızıl medal qazanan M.Hərçəqani bundan sonra da səylə çalışacağını və növbəti yarışlarda da nəticələrinin yüksək olması üçün var gücü ilə mübarizə aparacağını bildirib. İkiqat dünya çempionu M.Hərçəqani iki il əvvəl qazandığı ilk medalının onun üçün daha əhəmiyyətli olduğunu vurğulayıb.

Dünya çempionatında üçüncü yeri tutan Fəridə Əzizova deyib ki, növbəti mundialda məhz birincilik üçün döyüşəcək: "Çinli rəqibimi əvvəlcədən tanımadığım və onun fiziki imkanları daha yaxşı olduğu üçün uğur qazana bilmədim. Artıq onun da görüşlərini izləyib, həmin rəqibimə qarşı daha inamla çıxış edəcəyəm".

Görüşdə qadınlardan ibarət milli komandanın baş məşqçisi Elnur Amanov diqqətə çatdırıb ki, bu il keçiriləcək növbəti dörd Qran-Pri yarışında ən yüksək lisenziya xalları toplayaraq "Tokio-2020"Olimpiadasına daha çox vəsiqə qazanmağa çalışacağıq.

Xatırladaq ki, mayın 15-19-da Böyük Britaniyanın Mançester şəhərində keçirilən taekvondo üzrə böyüklər arasında dünya çempionatına 10 idmançı ilə qatılan Azərbaycan yığma komandası aktivinə iki medal yazdırıb. Yarışda millimizin titullu idmançılarından olan M.Hərçəqani 80 kiloqram çəki dərəcəsində ikiqat dünya çempionu olub. Qadın taekvondoçumuz Fəridə Əzizova isə fəxri kürsünün üçüncü pilləsində yer alıb.



## Şahmat üzrə respublika çempionatının final mərhələsi keçirilir

Məktəblər arasında respublika çempionatının proqramına uyğun olaraq, şahmat idman növü üzrə yarışların final mərhələsinə start verilib. Beş gün davam edəcək oyunlarda zona yarışlarında birinci və ikinci yerləri tutan komandalar mübarizə aparırlar.

Məktəblər arasında respublika çempionatı Təhsil, Gənclər və İdman nazirlikləri, Milli Olimpiya Komitəsi, Azərbaycan Məktəb İdmanları Federasiyası tərəfindən imzalanmış birgə əmrə əsasən keçirilir.

2018-2019-cu tədris ili ərzində keçirilən çempionatda Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən rayon və şəhər ümumtəhsil müəssisələrinin komandaları şahmat, atletika, voleybol və basketbol idman növləri üzrə mübarizə aparırlar.

## Atçılıq üzrə cıdır yarışlarının növbəti mərhələsi təşkil olunub

Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə Binə Atçılıq Mərkəzinin hippodromunda növbəti cıdır yarışlarına start verilib.

Gərgin idman mübarizəsi şəraitində keçən yarış dörd kateqoriyadan ibarət olub. Üç yaşlı ərəb atlarının 1200 metr məsafəyə qaçışında ilk iki pilləni "Günay" Atçılıq İdman Klubunun (AİK) "Şiraz" və "Qraf", üçüncü yeri isə Rafim Əsgərovun "Renessans-Tersk" ləqəbli atları tutublar.

Turnirdə 1600 metr məsafəyə qaçışda dörd yaşdan yuxarı Qarabağ və Dilbaz atları yarışıblar. Bu yarışda "Xan-Xan" AİK-in"Dağlar" ləqəbli atı birinci, Ramiz İbrahimovun "Pəri" ləqəbli atı ikinci olub. "Sərhədçi" AİK-in "Qaradağ", Allahverən Əliyevin "Laləzar" ləqəbli atları isə üçüncü və dördüncü yerlərdə qərarlaşıblar.

1800 metr məsafəyə qaçış üzrə üçüncü yarışda dörd və daha yuxarı yaşlı Qarabağ və Dilbaz atları iştirak edib. Yarışda "Xan-Xan" AİK-in "Dağlar" ləqəbli atı finiş xəttinə birinci çatıb. "Sərhədçi" AİK-in "Qaradağ" və "Qoşqar" ləqəbli atları müvafiq olaraq ikinci və üçüncü yerləri tutublar.

Mövsümün ikinci cıdır yarışının sonuncu qaçışında dörd yaşdan yuxarı ingilis atlarının 1800 metr məsafədə gücləri sınanıb. Bu yarışda ilk dörd pillənin üçündə "Omar" AİK-in "Atilla" (I yer), "Mr.Tornado" (II yer) və "Omar" (IV yer) ləqəbli atları qərarlaşıblar. Elşən Ənsərovun "Caspian Surf" ləqəbli atı isə üçüncü olub.

Yarışın ümumi mükafat fondu 11,2 min manatdan ibarət olub.

# AĞIRLIQQALDIRMA

Xüsusi buraxılış

# Rizvan Rəsulov:
# "Ağırlıqqaldırmanın təməlini etibarlı şəkildə qurmalıyıq"

## "Hazırda bizim idman psixoloqlarına böyük ehtiyacımız var"



*Ağırlıqqaldırma bütün dünyada olduğu kimi Azərbaycanda da böyük populyarlıq qazanan idman növlərindən biridir. Hələ SSRİ dövründən başlayaraq azərbaycanlı idmançılar bu növdə yüksək nailiyyətlər əldə ediblər. Bu ənənə ölkəmiz müstəqillik əldə etdikdən sonra da uğurla davam etdirilir. Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) rəhbərliyi bu istiqamətdə əməli işlər görür. Lakin beynəlxalq aləmdə böyük əks-səda doğuran dopinq qalmaqalı yerli federasiyanın da işinə mane olub. Yığma komandamızın bəzi üzvlərinin diskvalifikasiyası hələ də davam edir. Amma bu amil Azərbaycan Ağır Atletika Federasiyasını heç də ruhdan salmır. Hər zaman idman federasiyalarını və idmançıları diqqətdə saxlayan "Olimpiya dünyası" qəzeti ənənəsinə sadiq qalaraq "dəyirmi masa" təşkil etdi. "Dəyirmi masa"nın budəfəki qonaqları Azərbaycan Ağır Atletika Federasiyasının nümayəndələri və idmançılar oldular. Görüşdə Azərbaycan Ağır Atletika Federasiyasının baş katibi Rizvan Rəsulov, yığma komandanın baş məşqçisi Asif Məmmədov, mətbut xidmətinin rəhbəri Kənan Məstəliyev, üçqat Avropa çempionu Səbinə Əzimova, yeniyetmələr arasında Avropa çempionu, dünya birinciliyinin bürünc mükafatçısı Ömər Cavadov iştirak etdilər. Səmimi söhbət zamanı çalışdıq ki, federasiyanın fəaliyyətindən və qarşıya çıxan problemlərdən danışaq.*

*"Dəyirmi masa"da ilk sualımızı Federasiyanın baş katibi Rizvan Rəsulova ünvanladıq.*

***- Ağırlıqqaldırma ölkəmizdə inkişaf etmiş idman növlərindən biridir. Azərbaycan Ağır Atletika Federasiyasının prezidenti Cahangir Əsgərovun səyi nəticəsində bu sahədə də böyük uğurlar qazanılıb. Əlbəttə dopinqlə bağlı qalmaqallar da müəyyən problemlər yaradır. Bildiyimizə görə bu işdə beynəlxalq təşkilatlar qarşısında bir sıra öhdəliklər götürmüsünüz?***

- Ağırlıqqaldırma qədim idman növüdür. Zamanla bu idman növü təkmilləşdi və müasir dövrümüzə gəlib çıxdı. Müasir dövrümüzdə isə bu idman növündə dopinq kimi bir sıra problemlər yarandı. Əslində "dopinq bəlası" təkcə Azərbaycanla bağlı deyil. Dünyanın bir sıra aparıcı ölkələri var ki, bu problemlərdən əziyyət çəkir. Əlbəttə ki, dopinq problemi təkcə ağırlıqqaldırmada yox, digər idman növlərində də mövcuddur. Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) açıqladığı yekun rəylərə nəzər salsaq görərik ki, digər idman növlərində də dopinq problemləri var. Sadəcə olaraq, onların beynəlxalq federasiyaları Beynəlxalq Ağır Atletika Federasiyası qədər bu məsələyə ciddi yanaşmır, məsələni vaxtında həll edir. Bunun üçün də digər idman növlərində dopinq qalmaqalları olan zaman məsələ bu qədər şişirdilmir.

***- Dopinq məsələsi son illərdə daha çox siyasiləşdi. Bu fikirlə razılaşırsınızmı?***

- İnsanların müəyyən bir potensialı var. İstənilən nəticəyə baxanda başa düşmək olur ki, bu nəticənin arxasında nələr dayanır. Ola bilsin ki, bizim Ağır Altetika Federasiyası olaraq bu problemlərlə üzləşməyimizin obyektiv və subyektiv səbəbləri olub. Biz bunu gizlətmirik. Amma artıq 3 ildir ki, biz ağırlıqqaldırma idman növünü yaşatmaq və inkişaf etdirmək üçün bu və ya digər problemlərlə ciddi mübarizə aparırq. Sevindirici haldır ki, bu gün çox güclü yeniyetmə idmançılar ordusu toplamışıq. Bu növdə böyük kütləvilik yaratmışıq. Daha istedadlı uşaqların aşkar olunması üçün rayonlarda, şəhərlərdə böyük işlər həyata keçirilir. Biz çalışırıq ki, bu məsələnin həlli istiqamətində kütləviliyi artıraq və ağırlıqqaldırmanın sağlam inkişafına nail olaq. Bəli, dopinq məsələsi son illərdə daha çox siyasiləşdi. Bu məsələdə Beynəlxalq Ağır Atletika Federasiyası əsas günahı Sovetlər Birliyində (SSRİ) görürdü. Lakin SSRİ dövründə Uşaq-Gənclər İdman məktəbləri yaradıldı. Heçə kəsə sirr deyil ki, keçmiş SSRİ-də sosialist və kapitalist sisteminin müəyyən toqquşmaları olurdu. İdeoloji mübarizələr höküm sürürdü. Bu ideoloji mübarizənin içində hər bir idman növündə nəticələr qazanılması üçün Tədqiqat İnstitutları işləyirdi. Bu gün çox arzulayıram ki, Azərbaycanda belə Tədqiqat İnstitutları fəaliyyət göstərsin və bizə bilavasitə düzgün istiqamət versin.

***- Buenos-Ayresdə hər şey öz təsdiqini tapdı.***

- Tamamilə düz vurğuladınız. Biz ötən il Buenos-Ayresdə təşkil olunan Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında komanda şəklində bütün kriteriyaları yerinə yetirdik, 200-dən çox analizlər verdik. Ümumilikdə, 95 faiz Azərbaycan ağırlıqqaldırmasının təmizliyini göstərə bildik. Orada 5 nəfərdən ibarət Antidopinq Komissiyası işimizi müsbət qiymətləndirdi. Nəticədə Buenos-Ayres-2018-də iştirak etmək üçün bizə icazə verildi. Əgər Azərbaycanda ağır atletikanın kökü olmasa idi biz keçən il Buenos-Ayresdə təşkil olunan yeniyetmələrin III Yay Olimpiya Oyunlarında təmiz şəkildə qələbə qazana bilməzdik. Buenos-Ayresdə-2018-də qazanılan gümüş medal federasiyanın işinin düzgün istiqamətdə qurulduğunu, yeniyetmə və gənclərin inkişafına böyük əhəmiyyət verdiyinin göstəricisidir. Biz bu gün bu təmələ əsaslanaraq yeniyetmələrin və gənclərin yarışında nəticələr əldə edirik.

Dopinq probleminə görə isə biz hansısa fərdlərdə günah axtarmamışıq. Təbii ki, ilk növbədə günah özümüzdədir. İndi əsas məsələ bu səbəbi aradan qaldırmaq üçün problemi kompleks formada həll etməkdir. Artıq ağırlıqqaldırmada olan problemlər mərhələlərlə həll olunur. Bunun üçün təbii ki, zamana ehtiyacımız var. Məlum məsələdir ki, biz əvvəl bolqar sistemi ilə işləyirdik. Lakin indi yenidən əvvəlki sistemə qayıtmışıq. Buna baxmayaraq, əvvəlki sistemdə də müəyyən təkmilləşdirmələr aparılır. Məsələn, idmançılara müəyyən yüklər, idman qidaları veririk. Gördüyümüz bu işlərin nə dərəcədə müəyyən standartlara uyğun olduğunu isə zaman göstərəcək. Bir daha qeyd edim ki, daha böyük nailiyyətlər əldə etmək üçün qarşıda görüləsi hələ çox işlərimiz var. Bizə bu məsələdə Azərbaycan Milli Antidopinq Agentliyi çox köməklik edir. Mən onların bu fəaliyyətini çox müsbət qiymətləndirirəm. Onların işi idmançıları cəzalandırmaq yox, idmanı bu bəladan xilas etmək, sağlam mübarizə mühiti formalaşdırmaqdır.

***- Bolqarlar Azərbaycanda heyət formalaşdıranda özləri dopinqdə idilər. Yəni dopinq problemini Azərbaycana gətirən elə bolqarlar oldular. Bu fikirlərlə razılaşırsınızmı?***

- Bilirsiniz, valideyn ailədə həmişə çalışır ki, öz beynini məhsulunu uşaqlarına köçürsün. İstər tərbiyə, istərsə də digər məsələlər baxımından bu belədir. Sizin sualınızın cavabını mən bu fikirlə əsaslandırıram.

***- Yığma komandanın heyətini formalaşdırmısınız?***

- Bəli, gənclərə qədər heyətimiz demək olar ki, formalaşıb. Yəqin ki, 2024-cü ildə Parisdə təşkil olunacaq Olimpiadaya qədər biz çox işlər həyata keçirəcəyik. Keçən il biz 37 medal qazandıq ki, onlardan 32-si həm yeniyetmələrin, həm də gənclərin Avropa birinciliyinə aiddir. Bundan başqa yeniyetmələrin Olimpiya Oyunlarında gümüş medal əldə etdik. Bu il Azərbaycanın ağır atletika tarixində ilk dəfə olaraq, Las-Veqasda təşkil olunan yeniyetmələrin dünya birinciliyində 6 medal qazandıq. Yəni dinamika yüksək templə gedir.

Fikrimcə, Azərbaycanın hər bir Olimpiya idman növü xalqımızın xəzinəsidir. Olimpiya idman növü ilə məşğul olan idmançılar hər ay analizlərdən keçməlidirlər. İmkan verilməməlidir ki, beynəlxalq qurum idmançılarımızda dopinq aşar edərək bizi cəzalandırsın. Məsələni daxildə həll edərək həmin idmançıya qarşı vaxtında tədbir görülməlidir. Beynəlxalq qurum bu işi aşkar edəndə isə bizə çox böyük sanksiyalar tətbiq edir. Mən bu mənada AMADA-nın fəaliyyətini çox yüksək qiymətləndirirəm. AMADA-nın direktoru Şəfəq Hüseynli də çalışır ki, bu məsələyə çox ciddi yanaşsın, idmançılardan daha çox analizlər götürülsün. Biz iyun ayının 4-də Şüvəlanda AMADA ilə birgə seminar keçirəcəyik. Bu seminarlar idmançıların qeyd olunan problemə qarşı maarifləndirilməsində böyük rol oynayacaq. Təəssüflər olsun ki, bu gün idmançıların bir neçəsi çox sadə bir problemə görə dopinqdə ilişirlər. Bütün bunlar maarifləndirmə ilə əlaqədardır. Düşünürəm ki, belə maarifləndirici seminarlar dopinqə qarşı mübarizədə çox əhəmiyyətlidir. Bunun üçün federasiyalarda müəyyən təbliğat işləri də aparılmalıdır. Bu gün ağırlıqqaldıranlarımız bu məsələdə artıq müəyyən təcrübəyə malikdirlər. Onlar qidalarından tutmuş, içdikləri suya qədər fikir verirlər.

***- Asif müəllim, vaxtilə yığmanın aparıcı üzvlərindən olmusunuz. İndi yığma komandada güvəndiyiniz idmançılar varmı?***

- Hər kəsə məlumdur ki, 2013-cü ildə 18 idmançımız dopinqlə görə cəzalandırıldı. Federasiyamız müəyyən müddətə yarışlardan uzaqlaşdırıldı. Bundan sonra ölkəmizdə ağırlıqqaldırmanın zəifləyəcəyi gözlənilən idi. İllərini bu idman növünə həsr edən idmançılarımız bu cəzalara görə idmandan uzaqlaşdılar. Bu işin yenidən qurulması isə sözsüz ki, müəyyən qədər vaxt tələb edirdi. Artıq sevindirici haldır ki, bizim yeniyetmə və gənclərdən ibarət güclü ordumuz var. Çalışırıq ki, yeniyetmə idmançıları düzgün istiqamətdə formalaşdıraq. Bu gün yeniyetmələrdə iki yaş qrupumuz -13-15 yaşınadək və 15-17 yaşınadək idmançılarımız var. Yeniyetmələrimiz 35 ölkə arasında Avropa birinciliyində komanda hesabında qalib oldular. Bu sistemli şəkildə qurulan işdir. Məlum məsələdir ki, bu gün yeniyetmələrin təməlini düzgün şəkildə qura bilməsək, sabah gənclərdə və böyüklərdə istədiyimiz nəticələri əldə edə bilmərik. Acı da olsa həqiqətdir ki, bu gün bizim böyüklər arasında yaşı 20-dən yüksək olan az sayda idmançımız da var. Dopinq cəzalarına görə böyüklərin dünya və Avropa çempionatlarında mübarizə aparan idmançılarımız az saydadır. Biz bu gün bu problemi aradan qaldırmaq üçün yeniyetmələrin inkişafına fikir verməli, ağırlıqqaldırmanın təməlini etibarlı şəkildə qurmalıyıq. Əsas məqsədimiz Avropa birinciliyinin qalibi olan bu yeniyetmələrimizi sabahın gənclər və böyüklər arasında çempionu etməkdir.

## "Çalışırıq ki, bölgələrdə genetik cəhətdən irsi güclü olan uşaqları seçək"

***- Ağırlıqqaldırmanın bölgələrdə vəziyyəti nə yerdədir, ümumiyyətlə, bölgələrdə idmançı seçimi necə aparılır?***

**- Rizvan Rəsulov:** Kütləviliyi təmin etmək məqsədi ilə hər il seçmə yarışlar və respublika birincilikləri keçirilir.

Məşqçilər heyəti isə bu yarışlarda istedadlı uşaqları seçirlər. Bundan başqa bölgələrdə də istedadlı uşaqların aşkar olunması və ağırlaqdırmanın inkişafı istiqamətində müəyyən tədbirlər təşkil olunur. Bu işdə isə AAAF-ın vitse-prezidenti Tofiq Heydərov xüsusilə fəallıq göstərir. Lerikin Piran, Qosmalıan kəndi, Lahıc qəsəbəsində və bütün hündürlüklərdə kiçik stasionar zonalar tikilir, ağırlıqqaldırma kompleksləri açılır. Bundan başqa Astarada böyük məşq bazamız var. Komandamız ötən il Yeniyetmələrin III Yay Olimpiya Oyunları ərəfəsində təlim-məşq toplanışını məhz bu bazada keçdi. Keçən il federasiyaya və "Zirvə" beynəlxalq idman klubuna məxsus olan 100 komplektdə idman avadanlıqları 22-dən çox regionda yerləşən zallara və idman məktəblərinə heç bir fərq qoyulmadan paylanıldı. Bu gün bəzi zallarımız var ki, şərait baxımından zəifdir. Çalışırıq ki, həmin zalları əsaslı şəkildə təmir edək. Lənkəranda, Lerikdə, Neftçalada, Qazaxda zallar təmir olundu. Biz əsasən, hündürlükləri olan əraziləri seçirik. Çünki komanda orada təlim-məşq toplanışında və fərdi məşqlər zamanı daha yüksək hazırlıq əldə edə bilir. Çalışırıq ki, bölgələrdə genetik cəhətdən irsi güclü olan uşaqları seçək.

**Kənan Məstəliyev:** Qeyd edim ki, ağırlıqqaldırmada nailiyyət qazanan idmançıların əksəriyyəti bölgələri təmsil edirlər. Bunlara misal olaraq, Tərmenxan Babayevi (Naxçıvan), Səbinə Əzimovanı (Lənkəran), Ömər Cavadovu (Ağdaş) və başqalarını göstərmək olar. Bu da onu deməyə əsas verir ki, bizim regionlarda illərlə görülən işin nəticəsi artıq özünü göstərir. Yeniyetmələrdən sonrakı mərhələni inkişaf etdirmək üçün müəyyən işlər görülməlidir. Bunun üçün isə bir qədər vaxt lazımdır.

**Rizvan Rəsulov:** Bu yaxınlarda Gənclər və İdman Nazirliyinin vəsaiti hesabına Naxçıvanda təlim-məşq toplanışında iştirak etdik. Qeyd edim ki, Naxçıvanda ağırlıqqaldırma bölməsi fəaliyyət göstərir. Vaxtilə Asif Məmmədov, Nizami Paşayev orada fəaliyyət göstərib, təlim-məşq toplanışlarında iştirak ediblər. Elə Tərmenxan Babayevin üzə çıxmasında da Asif Məmmədovun, Nizami Paşayevin böyük rolu var. Ümumiyyətlə, Naxçıvan ağırlıqqaldırma üçün çox strateji yerdir. İdmançıların 18 gün Naxçıvanda təlim-məşq toplanışında olması bizə imkan verdi ki, nəticələrimizi bir qədər də yaxşılaşdıraq. Ekoloji və qida məsələləri var ki, bunların hamısı bölgələrdə genetik cəhətdən güclü idmançıların üzə çıxmasına təsir edir. Yəni göründüyü kimi, dağlıq ərazilər idmançının daxili harmoniyasına yaxşı təsir göstərir.

## "İdmançı yarış həyəcanını hiss etməlidir"

**Kənan Məstəliyev:** Bəzən idmançını tapmaq kifayət etmir. İdmançı mütləq yarışlarda iştirak etməlidir. İdmançının təkcə öz kəndindəki zallarda məşq edərək nailiyyət qazanması asan olmaz. Atlet məşq zalında bəlkə, Olimpiya rekorduna nail olar, lakin yarışa çıxıb həyəcandan o rekorda yaxın belə düşə bilməz. Yəni idmançı yarış həyəcanını hiss etməlidir. Klub və federasiya səviyyəsində il ərzində 4 dəfə regional yarışlar keçiririk. İl ərzində isə ümumilikdə 20 yarış təşkil olunur. Bu yarışlar Şimal-Şərq, Cənub və Qərb regionunda keçirilir. Yarışlar zamanı həmin regiona yaxın olan ərazilərdən bütün idmançılar cəlb olunur. Şimal-Şərq regionunda olan yarışlar Xırdalanda keçirilir.

(ardı 5-ci səhifədə)

# AĞIRLIQQALDIRMA




## Rizvan Rəsulov:
# "Ağırlıqqaldırmanın təməlini etibarlı şəkildə qurmalıyıq"

### "Hazırda bizim idman psixoloqlarına böyük ehtiyacımız var"

*(əvvəli 4-cü səhifədə)*

Bu yarışda Bakı, Sumqayıt, Qobustan, Şamaxı və İsmayıllıdan olan atletlər mübarizə aparırlar. Lənkəranda keçirilən Cənub regionuna daxil olan yarışlarda isə Lənkəran, Cəlilabad, Neftçala, Lerik və Astaradan olan atletlər qüvvələrini sınayırlar. Samuxda keçirilən Qərb regionuna daxil olan yarışlarda isə Samux, Goranboy, Gəncə, Qazax, Yevlax, Şəki və Qaxı təmsil edən idmançılar iştirak edirlər. Bu seçmə mərhələ yarışlarında həm yeni idmançılar aşkar olunur, həm də yarış təcrübəsi əldə edirlər. Bu yarışda iştirak edən idmançılar həm də respublika birinciliklərində özünü sınamaq şansı qazanır. Bizim hazırki çempionlarımız Ömər Cavadov, Səbinə Əzimova və digərləri belə yarışlardan çıxıblar. Bu yarışlarda iştirak edən idmançılar qısa müddətdə regiondan mərkəzə tərəf gəlmək şansı əldə edirlər. Bir il ərzində 20 yarış keçirməklə idmançıları podiuma öyrədirik. Fikrimcə, bu heç də kiçik bir hadisə deyil.

***- Rizvan müəllim, bu gün psixoloqların federasiyalarla əlaqəli işləməməsi çox böyük fəsadlara gətirib çıxarır. Bəs, Ağır Atletika Federasiyasında bu vəziyyət nə yerdədir?***




- 2014-17-ci tədris illərində "Zirvə" liseyində 40-dan çox idmançımız oxuyub. Burada uşaqlara psixoloqlar çalışırdı. Lakin idman psixologiyası və idman həkimi məsələsi nəin ki bizdə, digər idman növlərində də problemli məsələdir. Biz istəyirik ki, bilavasitə idman psixologiyası ilə əlaqədar mütəxəssislər olsun. Hazırda bizim idman psixoloqlarına böyük ehtiyacımız var.

### "Hiss etdim ki, bu idman növündə uğur əldə edə bilərəm"

***- Səbinə xanım, qadın üçün digər idman növləri olduğu halda niyə məhz ağırlıqqaldırmaya üstünlük verdiniz?***

- Mənim əvvəllər futbola və güləşə həvəsim olub. 9 yaşımdan futbol məşqlərinə gedirdim. 11 yaşımda isə futbolla yanaşı, güləş bölməsinə də yazıldım. Sonra müəllimim Tale Hüseynov mənə dedi ki, səndən yaxşı ağırlıqqaldıran olacaq. Elə oldu ki, Tale müəllim məni ağırlıqqaldırmaya dəvət etdi. Məni həvəsləndirmək üçün deyirdi ki, sən ağırlıqqaldırma idman növündə daha da irəli gedəcəksən, "yaxşı telefonun olacaq". Təbii ki, mən də uşaq olduğum üçün həvəsləndim. Zala gəlib gördüm ki, balaca uşaqlar dəmir qaldırırlar. Əvvəlcə çox təəccübləndim. Bir müddət məşqlərə gəldikdən sonra hiss etdim ki, bu idman növündə uğur əldə edə bilərəm. Ağırlıqqaldırma elə bir idman növüdür ki, burada çətinlikdən qorxmamalısan. Bu idman növünü yalnız bacarıqlılar seçirlər. Özünə güvənməyən insan isə ağırlıqqaldırmada uğur əldə edə bilməz. Özünə güvənərək ştanqa yanaşırsan. Müəllim isə sənə güc verir. Əgər bundan istifadə edə bilsən, çəkini qaldıra biləcəksən.

***- Səbinə, ilk uğurun nə vaxt olub?***

- Mənim üçün ilk uğurlu nəticəm 2015-ci ildə İsveçdə təşkil olunan Avropa çempionatında qazandığım qızıl medal olub. Sevindirici haldır ki, 2016-cı və 2017-ci illərdə də yenidən bu titula yiyələndim.

***- Üçqat Avropa çempionu olan Səbinə Əzimovanın əsas hədəfi nədir?***

- Təbii ki, hər bir idmançı kimi mənim də arzularım və məqsədlərim çoxdur. Qarşıda hələ çox yarışlar var. Çalışacağam ki, dünya Avropa və Olimpiya Oyunları kimi mötəbər yarışlardan ölkəmizə medallar gətirim. Onu da qeyd edim ki, şəxsi məşqçilərim Tale Hüseynov və Anar Qasımovun uğur qazanmağımda çox böyük rolu olub. Fürsətdən istifadə edib hər iki məşqçimə təşəkkürümü bildirirəm.

**Rizvan Rəsulov:** Səbinə Əzizovanın ən böyük üstünlüyü ondan ibarətdir ki, o, hər beynəlxalq yarışa əsl döyüşçü kimi çıxa bilən keyfiyyətlərə sahib idmançıdır. Mən bunu Ömər Cavadova da şamil edirəm.

***- Səbinə, yaşının az olmasına baxmayaraq, xeyli uğurlar əldə etmisən. Asanlıqla qazandığın uğurların olubmu?***

- Hər bir işdə çətinlik olur. Demək olar ki, heç bir uğurum asanlıqla qazanılmayıb. Hətta sonuncu Avropa çempionatı mənim üçün çox çətin keçdi. Çıxış etdiyim çəki dərəcəsində 2 rumıniyalı idmançı var idi. Lakin çətinliklərə baxmayaraq, sonda məqsədimə nail oldum.

***- Bəs, dopinq təhlükəsindən özünü necə sığortalayırsan?***

- Hər bir şeyə diqqət edirəm. Adi içdiyim suya belə diqqət edirəm ki, bu problemdən uzaq olum. İstəmirəm illərlə çəkdiyim əziyyəti, qazandığım uğuru adi bir səhvə görə itirim.

***- Xanım olaraq başqa arzuların varmı ki, özünü həmin sahədə görəsən?***

- Mənim ikinci sevdiyim idman növü var ki, bu da fitnes-modellikdir. Özümü o idman növündə də görmək istəyərəm. Mətbəxə və digər sahələrə isə həvəsim yoxdur.

### "Ağırlıqqaldırmanı o qədər də xoşlamırdım"

***- Bəs, Ömər Cavadovun ağırlıqqaldırmaya gəlişi necə olub?***

- Düzünü desəm, mənim əsasən, cüdoya böyük həvəsim olub. Ağırlıqqaldırmaya gəlişimdə isə Elnur Hüseynovun böyük rolu olub. Düzü, ağırlıqqaldırmanı o qədər də xoşlamırdım. Lakin sonralar zala getdikcə, məndə bu idman növünə qarşı maraq yarandı. Yarışlara çıxdıqca, nailiyyətim yaxşılaşdıqca bu idman növünə olan həvəsim də artdı. Sonra isə Avropa və dünya birinciliklərinin mükafatçısı oldum.

***- Yəqin ki, dostların da bu gün sənin uğurlarına sevinirlər?***

- Əlbəttə. Dostlarım mənim uğuruma sevinirlər. Onlar məndən hər yarışda yalnız qələbə gözləyirlər. Dünya birinciliyindən sonra Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı məni qəbul etdi. Bu mənim üçün sevindirici hal və əlavə stimuldur.

### "İdmançı yeniyetmə vaxtından çəki salmamalıdır"

***- Hər dəfə çəki dərəcələri artdıqca problemlər də artır. Bu problemlər isə legionerlərin hesabına aradan qaldırılır. Hazırda AAAF bu problemləri aradan qaldıra bilibmi?***

- **Rizvan Rəsulov:** Düzdür, yuxarı çəki dərəcələrində idmançıların azlığı bizim çatışmayan cəhətlərimizdən biri olub. Lakin az da olsa yuxarı çəkilərdə idmançılarımız olub. Noyabr ayının 1-dən 10 çəki dərəcəsi tətbiq olundu. İstər qadınlarda, istərsə də kişilərdə 10 çəki dərəcəsinin hər birində idmançı çıxara bilirik. Bu gün bizim 109+ kq çəki dərəcəsində, hətta 112 kq, 118 kq çəki dərəcəsində olan idmançılarımız var. Yeniyetmələrin yarışında yuxarı çəki dərəcəsində idmançılarımız iştirak ediblər. Dopinqlə mübarizədən sonra ciddi surətdə çəkilərin salınması qadağan olunub. İdmançı yeniyetmə vaxtından çəki salmamalıdır. Bu idmançı üçün müəyyən problemlər yaradır. Onu da qeyd edim ki, ağırlıqqaldırma idman növü uşaqların orqanizminin inkişafına, boy artımına müsbət təsir göstərir. Bu mütəxəssislər tərəfindən də qəbul olunmuş faktdır.

**Kənan Məstəliyev:** Yuxarı çəki dərəcəsi təkcə ağırlıqqaldırmada deyil, digər idman növlərində də mövcuddur. Bu istiqamətdə addımlar atırıq. Bu proses davamlı olaraq həyata keçirilir.



***- Rizvan müəllim, ölkə çempionatında perspektivli idmançılar çıxış edir. Onların milli komanda da yer alması ürəkaçandır. Necə düşünürsünüz Azərbaycan millisinin legionersiz bir heyətə malik olması çətindir?***

- Bu günün mənzərəsinə fikir versək görərik ki, legioner idmançı gəlib nəticə əldə edir, pulunu qazanır və gedir. Amma xalqımız onun ad familyasını oxuyanda buna ötəri yanaşır. Lakin Olimpiya mükafatçıları sırasında öz millətimizin nümayəndələrini görəndə isə insan qürur hissi keçirir. Bu gün demək olar ki, ağırlıqqaldırmada legioner idmançı yoxdur. Legionerlər arasında təkcə, Boyanka Kostovanın adını çəkmək olar ki, o da Bolqarıstandadır.

### "Biz heç vaxt, heç nəyi gizlətmirik"

***- Bu gün idman saytlarının bir qismində ağırlıqqaldırmanın dopinqdə ilişməsi barədə fikirlər yer alır.***

- **Kənan Məstəliyev:** Çox təəssüf ki, bu gün bəziləri müəyyən normativlərə riayət etmirlər. Bu gün federasiyanın adını səhv yazan bəzi müxbirlərin yazdığı "məqalələr"ə reaksiya çox güclü olur. Təəssüf hissi ilə qeyd edim ki, bəzi jurnalist həmkarlarımız uğurları deyil, xoşagəlməz hadisələri yazaraq reytinq qazanmaq istəyir. Biz hətta razıyıq ki, jurnalistlərimiz gəlib federasiya haqqında tənqidi yazı yazsınlar. Onlar gəlib məsələni yerində öyrənsinlər. Heç bir fakta söykənməyən materiallar




hazırlamasınlar. Qəzet vasitəsi ilə bildirmək istəyirəm ki, bu gün idman jurnalistikasında çox dəyərli, öz işinin peşəkarı olan təcrübəli onlarla jurnalistlərimiz var. Gördükləri işə görə onlara təşəkkür edirəm. Dopinq qalmaqalları çox olduğuna görə onların fəaliyyətini izlədim və nümayiş etdirdikləri peşəkarlıqları gördüm. AMADA idmançıların dopinqə düşdüyünü elan edən kimi hər kəs bunu qabartmağa başlayır. Lakin onlar düşünmürlər ki, AMADA-nın gördüyü iş bizə köməkdir. Əgər AMADA onların qarşısını almasa idi, həmin idmançılar yığmanın heyətində yarışlara yollanacaq və WADA tərəfindən dopinq testdən keçə bilməyəcəkdilər. Yekunda isə Federasiya cəzaya məruz qalacaqdı. Biz heç vaxt, heç nəyi gizlətmirik. İdmançısının dopinqə düşdüyünü öz rəsmi internet saytında elan edən tək və yeganə federasiyayıq.

***- Asif müəllim, Bu yaxınlarda respublika birinciliyi təşkil olundu. Bu yarışda yeni adlara rast gəlmək mümkün oldumu?***

- Bəli. Titullu idmançılarımızla yanaşı, yeni simalar da bu yarışda üzə çıxdı. Seçmə mərhələləri və respublika birincilikləri məhz istedadlı idmançıların aşkar olunmasında, onların üzə çıxaraq parlamasında və yarış təcrübəsi qazanmasında böyük rol oynayır.

***- Hər birinizə bizim dəvətimizi qəbul etdiyiniz və redaksiyamızın qonağı olduğunuz üçün təşəkkür edirik.***

- Biz də öz növbəmizdə federasiyamız adından sevimli qəzetimiz olan "Olimpiya dünyası"na minnətdarıq. Çox sağ olun ki, bizə ürək sözlərimizi demək üçün şərait yaratdınız.

*Anar Əhmədov,*
*Azər Əlizadə*

# Naxçıvan cüdoçuları beynəlxalq turnirin qalibi olublar



***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən cüdo üzrə beynəlxalq turnir təşkil olunub.***

Yarış Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman nazirlikləri, Azərbaycan Cüdo Federasiyasının birgə təşkilatçılığı ilə keçirilib.

Yarış iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyi ilə tanış olublar. Sonra beynəlxalq turnirin açılış mərasimi keçirilib. Açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin birinci müavini, Naxçıvan Güləş Federasiyasının sədri Azər Zeynalov turnir iştirakçılarını salamlayaraq bildirib ki, cüdo üzrə beynəlxalq turnirin xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunması onun əhəmiyyətini daha da artırır. Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov çıxış edərək bildirib ki, Azərbaycanda idman ənənələrinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Məhz ulu öndərin diqqət və qayğısı nəticəsində ölkənin bütün regionlarında Olimpiya-idman kompleksləri tikilərək idmançıların ixtiyarına verilib. İsmayıl İsmayılov yarışın yüksək səviyyədə təşkil olunmasında göstərilən dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib. Sonra cüdo üzrə Avropa və dünya çempionatının mükafatçısı Nicat Şıxəlizadə çıxış edərək yeniyetmə cüdoçulara uğurlar arzulayıb. Daha sonra ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-ci ildönümünə həsr edilən cüdo üzrə beynəlxalq turnir açıq elan olunub və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Açılış mərasimi bədii hissə ilə davam edib. Turnirdə Gürcüstan, Türkiyə və Rusiya komandaları, eləcə də ölkəmizin Bakı, Sumqayıt, Gəncə, Qəbələ, Naxçıvan və Culfa komandaları mübarizə aparıblar. Olimpiya sistemi üzrə təşkil edilən beynəlxalq turnirin final görüşündə Naxçıvan Muxtar Respublikası və Sumqayıt komandaları üz-üzə gəliblər. Gərgin keçən görüş naxçıvanlı cüdoçuların qələbəsi ilə başa çatıb. Gürcüstan və Qəbələ komandaları isə turnirin bürünc medalını qazanıblar. Sonda qaliblər diplom, medal və kubokla mükafatlandırılıblar.

# Elçin Əsədov sülh yarışında uğurla çıxış edib



Ukraynanın Çabanı şəhərində Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı birgünlük "Sülh uğrunda Horizon Park" yarışı keçirilib. Veloturda Azərbaycanın Elit yığmasının üzvü - Ukraynanın "Lviv" kontinental klubunun velosipedçisi Elçin Əsədov da iştirak edib.

145 km məsafəni 3 saat, 38 dəqiqəyə qət edən Elçin finiş xəttini 7-ci keçib və bununla da ölkəmizin reytinqinə Tokio-2020 Yay Olimpiya Oyunları üçün daha 5 lisenziya xalı qazandırıb. Yeri gəlmişkən, Elçin həm də şərəfini qoruduğu "Lviv" komandasının yarışda iştirak edən üzvləri içərisində ən yüksək nəticə göstərib.

# Atletika üzrə paytaxt birinciliyinə yekun vurulub



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin, Azərbaycan Atletika Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən böyüklər arasında atletika üzrə Bakı şəhər birinciliyinə yekun vurulub.

Yarışda səkkiz komandanın heyətində 100-dən çox atlet iştirak edib.

Yarışlarda oğlanlar arasında uzunluğa tullanmada Yadulla İbrahimov, üçtəkanla tullanmada Rüstəm Məmmədov, hündürlüyə tullanmada Aydın Bədəlov, lövhə atmada Nurməmməd Babayev, nüvəitələmədə İsmayıl Əliyev, nizə atmada isə Orxan Qasımov qalib adını qazanıblar.

Qızlar arasında isə uzunluğa tullanmada Yelena Pextereva, üçtəkanla tullanmada Yekatirina Sarıyeva, hündürlüyə tullanmada Ləman Hüseynova, nüvəitələmədə Günel Hüseynova, nizə atmada Könül Əliyeva birinci yerə layiq görülüblər.

Qaçış növləri üzrə oğlanların yarışında Ramiz Məlikov (100 m), Rahib Məmmədov (200 m), Teymur Salahzadə (400 m), İlham Abışov (800 m,1500 m), Tural Sadıqlı (3000m) birinci yerdə qərarlaşıblar.

Qızların yarışında isə Zəkiyyə Həsənova (100 m, 200 m), Lamiyə Vəliyeva (400 m), Nika Məmmədova (800 m) və Anna Yusupov (1500m, 3000m) birinci olublar.

Yarışın sonunda qaliblərə medallar və diplomlar təqdim edilib.

# Sumqayıt məktəbliləri şəhər birinciliyində



"Sumqayıt Bulvarı"nda şəhər Gənclər və İdman Baş İdarəsinin və Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Sumqayıt şəhərinin 70 illik yubileyinə həsr olunmuş tam orta ümumtəhsil məktəblərinin şagirdləri arasında kross üzrə şəhər birinciliyi keçirilib. Müəyyən olunmuş marşrut üzrə 3000 metr məsafəyə kross yarışında 48 ümumtəhsil məktəbinin 150-yə yaxın şagirdi iştirak edib.

Tədbirin açılış mərasimində çıxış edən şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Elgün Hümbətov və Təhsil şöbəsinin metodisti İlham Mirzəliyev ölkəmizdə idmana xüsusi diqqət və qayğı göstərildiyini, gənc nəslin fiziki və mənəvi inkişafına həmişə prioritet məsələ kimi yanaşıldığını qeyd ediblər. Sonra Sumqayıt şəhərinin sosial-iqtisadi və mədəni həyatında davamlı inkişafa nail olunması, möhtəşəm Heydər Əliyev Mərkəzi, memarlıq inciləri olan Şahmat və Uşaq İncəsənət məktəbləri, Bayraq Muzeyi son dövrün möcüzəsi olan füsunkar Sumqayıt Bulvarının tikilərək sakinlərin istifadəsinə verilməsi haqqında geniş məlumat verilib və birincilik açıq elan edilib.

Maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən yarışda qaliblərin adlarına aydınlıq gəlib.

Tunirin qalib və mükafatçıları Baş İdarə tərəfindən fəxri fərman, medal və hədiyyələrlə mükafatlandırılıblar.

***REDAKSİYANIN POÇTUNDAN***

## Futbol üzrə açıq çempionat yekunlaşdı

Astara rayon Ojakəran kənd futbol meydançasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibəti ilə kişilər arasında futbol üzrə Kijəbə qəsəbə inzibati ərazi dairəsinin açıq çempionatı keçirilib.



8 komandanın iştirak etdiyi yarışın final oyununda "Ojəkəran" (Ojəkəran kənd) və "Xəzər"(Ojəkəran kənd) komandaları qarşılaşıb. Gərgin keçən yarışda "Ojəkəran" komandası 6:2 hesabı ilə "Xəzər"dən üstün olaraq birinci yerə layiq görülüb.

Qeyd edək ki, yarışda qalib komandalar Astara Rayon Gənclər və İdman İdarəsinin diplomları ilə təltif olunub.

* * *

Biləsuvar Olimpiya İdman Kompleksində Yeniyetmələrin XII Respublika Oyunlarının proqramına daxil olan həndbol üzrə 2005-2006-cı illər təvəllüdlü oğlanlar arasında zona yarışları keçirilib.

Yarışda Astara rayonunu təmsil edən Sencərədi kənd tam orta məktəbinin komandasının iştirakı Astara rayon Gənclər və İdman İdarəsi tərəfindən təmin edilib.

Gərgin keçən mübarizənin sonunda Astara rayonunun təmsilçiləri II yerə layiq görülərək respublika final mərhələsində iştirak etmək hüququ qazanıb.

Astara rayon Gənclər və İdman İdarəsinin kollektivi Sencərədi kənd tam orta məktəbində məktəbin şagird, müəllim kollektivi və uğur əldə edən komanda üzvləri ilə görüş keçirib. Görüşdə çıxış edən Rayon Gənclər və İdman İdarəsinin rəisi Ərçə Əliyev Astara idmançılarını qazandıqları uğur münasibəti ilə təbrik edib, komandanın hər bir üzvünü idarənin diplomu ilə təltif edib.

Qeyd edək ki, Astara idmançılarını yarışa Sencərədi kənd tam orta məktəbinin fiziki tərbiyə müəllimi Araz Nəzərov hazırlayıb.

## Xüsusi olimpiyaçılar atletika üzrə respublika çempionatında qüvvələrini sınayıblar

Mayın 22-23-də Azərbaycan Xüsusi Olimpiya Komitəsinin təşkilatçılığı ilə atletika üzrə respublika seçmə yarışları keçirilib. Respublika Olimpiya Mərkəzində keçirilən yarışlarda oğlanlar 50 m



və 200 m, qızlar isə 50 m məsafəyə qaçış yarışlarında qüvvələrini sınayıblar. Gərgin keçən yarışın yekununda on bir divizionda mübarizə aparmış müxtəlif idman klublarının təmsilçiləri arasında qaliblər müəyyənləşib. Qalib və mükafatçılara medal və diplomlar təqdim edilib.

## Respublika çempionatı keçirilib

Bakı İdman Sarayında ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş aşihara karate üzrə respublika çempionatı keçirilib.



Turnirdə Azərbaycanın 20-dən artıq şəhər və rayonlarından 200-ə yaxın idmançı qüvvəsini sınayıb. Maraqlı idman mübarizəsi şəraitində keçən yarışda fəxri kürsünün ilk pilləsində Nəsimi rayonunun komandası qərarlaşıb. İkinci yeri Göygöl rayonunun komandası tutub. Üçüncü yerə isə Səbail rayonunun komandası və "RM" klubunun yetirmələri layiq görülüblər.

Sonda qaliblər mükafatlandırılıblar.

* * *

İyunun 1-2-də Gəncədə karate üzrə "Gəncə kuboku" beynəlxalq turniri keçiriləcək.

Gəncə Olimpiya İdman Kompleksində keçiriləcək yarışda bir sıra ölkələrdən karateçilərin də iştirakı gözlənilir.

Azərbaycan Milli Karate Federasiyası və onun Gəncə regional şöbəsinin, Gəncə Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil edəcəyi turnirdə 6-12 yaşadək uşaqlar və 14-15 yaşlı yeniyetmələr kumite və kata yarışlarında mübarizə aparacaqlar.

İyunun 1-də beynəlxalq turnirin təntənəli açılış mərasimi olacaq.

* * *

Rusiyanın Barnaul şəhərində keçirilən kosiki karate-do üzrə açıq Asiya kuboku yarışlarında Azərbaycan yığma komandası uğurla çıxış edib.

Yarışda 10 ölkədən 13 komanda birincilik uğrunda mübarizə aparıb.

Bunkay-kumite yarışlarında Nazim Mövsümzadə, Asiman Namazov və Çingiz Cabbarovdan ibarət komandamız bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Şəxsi hesabda isə təmsilçilərimiz 18 yaşdan yuxarı idmançılar kateqoriyasında mübarizə aparıblar. Nazim



Mövsümzadə kata yarışlarında uğurla çıxış edərək qızıl medal qazanıb. Asiman Namazov turniri ikinci, Çingiz Cabbarov isə dördüncü pillədə başa vurub.

Kumite yarışlarında 73 kiloqram çəki dərəcəsində mübarizə aparan Çingiz Cabbarov gümüş medala sahib olub. Asiman Namazov (82 kq-dan yuxarı) açıq Asiya kuboku yarışlarında dördüncü yeri tutub.

Turnirdə AKKF-in yığma komandasının məşqçisi də qızıl medal və kubokla təltif edilib.

Futbol



Mobil İSMAYILOV

# Başa çatmış futbol mövsümünün təəssüratları

***Hər futbol mövsümü özü ilə maraqlı hadisələr, yeniliklər, sürprizlər, qeyri-adi dəyişikliklər gətirir. Növbəti 2018-2019-cu il mövsümü də belə oldu.***

Son illər olduğu kimi, bu mövsüm də İngiltərə Premyer Liqası güclü rəqabət və gərginliyi ilə seçildi. Əvvəldən ehtimal olunurdu ki, çempionluq adı və ilk dördlüyə düşmək uğrunda altı komanda arasında mübarizə gedəcək. Məqsədə çatmaq da son turlarda məlum olacaq. Proqnozlar əsasən təsdiq olundu. Yalnız sükanı arxasında Mourinyonun olduğu "Mançester Yunayted"in 10-15 turdan sonra çempionluq hədəfindən kənarda qalması bir qədər gözlənilməz qarşılandı.

Tədricən "Mançester Siti" və "Liverpul" bəzi komponentlərdə digər iddialı rəqiblərindən üstün görünməyə başladılar. Nəticədə çempionluq adı uğrunda mübarizə məhz bu iki komanda arasında getdi. Hər iki komandanın ilk turdan son tura qədər inamlı təsir bağışlamaları mövsümboyu stabil oyun göstərmələrinə gətirib çıxardı. Hansı ki, digər iddialı komandalarda məhz bu stabillik çatışmadı. Əslində "Mançester Siti" də, "Liverpul" da çempionluğa layiq idilər. Amma nə edəsən ki, çempion bir komanda olur... Premyer Liqanın tarixində hər iki komanda 90 xalı keçdi.

"Şəhərlilər"in heyətində Kayl Uoker, Con Stounz, Aleksandr Zinçenko, Fil Foden, İlkay Gündoğan, Leroy Sane, Serxio Aquero əla mövsüm keçirdilər. Kevin De Brüyne zədə səbəbindən bir sıra oyunları buraxsa da, meydana çıxdığı matçlarda yaxşı təsir bağışlayırdı. Komandanın uğurlarında rolu danılmaz olan Bernardu Silva xüsusi ilə qeyd edilməlidir. Topla əla davranan bu futbolçudan topu almaq müşkül görünürdü. Rahim Sterlinq cinahlardan çox yaxşı istifadə edir, cəlddir, sürətlidir, möhtəşəm fiziki hazırlığa malikdir. Yalnız topla davranışında müəyyən çatışmazlığı vardır. Lakin o, hələ gəncdir, öz üzərində işləsə, mükəmməl futbolçu olacağına ümid böyükdür. Meydanda həmişə istəkli görünməyə çalışan David Silvaya və Vensan Kompaniyə artıq yaş öz təsirini göstərir (hər ikisinin 32 yaşı var). Qeyd etmək yerinə düşər ki, Kompani çempionluğun taleyi həll olunan "Lester Siti" ilə matçda çox vacib, özü də mövsümün ən gözəl qollarından birini vurdu. 33 yaşlı Fernandinyonun isə artıq yerini əvəzedicisinə verməyinin vaxtı gəlib çatmışdır.

"Tottenhem"lə təkrar oyunda qalib gəlmələrinə baxmayaraq mərhələ keçə bilməyən "Mançester Siti"nin yarımmüdafiəçisi İlkay Gündoğanın stadionu tərk etməyərək, təsirli bir formada ağlaması hələ də yadımdan çıxmır...

İdeal mövsüm keçirən güclü "Liverpul"un heyətində bütün oyunçular özlərini doğrultmaqla əzmkarlıqları və çox istəkli olmaları ilə yadda qaldılar. Van Dayk, Endrü Robertson, Corcinyo Veynaldum, Ceyms Milner, Cordan Henderson, Cerdan Şakiri, Sadio Mane, Roberto Firmino, Məhəmməd Salah isə azarkeşlərə daha çox xoş anlar yaşatdılar. Bir sözlə, komanda bütövlükdə hər cür tərifə layiqdir.







## "Tottenhem" komanda şəklində uğur qazanmağı bacarır

Özünəməxsus oyun tərzinə və ənənələrinə sadiq qalan "Tottenhem"i futbol həvəskarları bu mövsüm də bəyəndilər. Mübariz bir komanda formalaşdırmağa nail olan Maurisio Poçettinoya azarkeşlərin və mütəxəssislərin rəğbəti getdikcə artır. "Tottenhem"komanda şəklində uğur qazanmağı bacarır. Bununla belə Kiran Tripperi, Deni Rouzu, Kristian Erikseni, Lukas Mouranı, Erik Lamelanı, Fernando Lorenteni, Harri Keyni bu mövsüm də fərqləndirmək istərdim. Ancaq azarkeşlərin gözlədiyinin əksinə olaraq Deli Alli potensialından aşağı səviyyədə müşahidə edilən çıxışları ilə yadda qaldı. Bir sıra oyunlarda ən vacib qolları vuran, bununla da komandanın uğurlarına imza atan, hətta bəzi oyunlarda xilaskara çevrilən Son Hın Minin rolunu ayrıca qeyd etmək yerinə düşər. Cənubi koreyalının bütövlükdə komandaya verdiyi fayda, uğur payı nəticə baxımından mən deyərdim ki, Keyn tərəfindən bəxş edilənlərdən daha artıq görünür.

Bernardu Silva kimi Son Hın Min də topla sürətlə hərəkət etmək məharətinə yiyələnmişdir. Ümumiyyətlə, belə təsəvvür yaranır ki, Silvanın, Son Hın Minin, Salahın ayaqlarından topu ancaq onların özləri imkan verəndə almaq mümkün olur. Bu mövsümdə rəqibləri topu onların ayaqlarından nadir hallarda ala bilirdilər.

## Kim nə ilə yadda qaldı?

İngiltərədə rəqabətin çox yüksək olması nəzərə alınsa, "Çelsi"nin azarkeşləri, mütəxəssislər komandanın bu mövsümdəki çıxışını və nəticələrini qənaətbəxş hesab edə bilərlər. Gələn mövsüm Çempionlar Liqasına vəsiqənin təmin olunması və Avropa Liqasının finalına çıxmaq hər bir halda uğur kimi qiymətləndirilməlidir.

Sezar Aspikuleta, Pedro Rodriqes keçən mövsümlə müqayisədə bu dəfə daha yaxşı təsir bağışladılar. Mateo Kovaçiç, Olivye Jiru da özlərini yaxşı tərəfdən göstərdilər. Andreas Kristensen bütün keyfiyyətlərini ortaya qoya bildi. Ruben Loftus-Çik azarkeşlərin rəğbətini qazanmağa nail oldu. Jorjinyo çalışqanlığı, istəkli görünməsi ilə yadda qaldı. Qonsalo İquain bacardığı qədər oynayırdı. Eden Hazard əla mövsüm keçirdi. Azarkeşlər, mütəxəssislər David Luisdən və Villiandan daha yüksək səviyyəli oyunlar gözləyirdilər. Enqolo Kante əvvəlki mövsümlərlə müqayisədə bir qədər sönük təsir bağışlayırdı. Markos Alonso da əvvəlki mövsümlərdə daha yaxşı oynayırdı. Antoni Rudiqer isə yenə də teztez səhvlərə yol verirdi.

"Çelsi"nin baş məşqçisi Maurisio Sarri müsahibələrində başa çatmış mövsümü dəyərləndirərkən İngiltərə Premyer Liqasını dünyanın ən güclü liqa olduğunu bildirmiş və "Mançester Siti"ni də Avropanın ən güclüsü hesab etmişdir.

Mövsüm ərzində qeyri-stabil çıxış edən "Arsenal"ın ilk dördlükdən kənarda qalması çempionatın sonuna bir tur qalmış rəsmiləşdi. "Topçular" iddialı komandaların bəzilərinə qarşı uğurlu nəticələr əldə etsələr də, onların ardıcıl məğlubiyyətləri də oldu. Buna görə də Unai Emerinin komandasının ilk dördlüyə düşə bilməməsini təbii və normal hal kimi də qəbul etmək olar. Məsut Özil artıq çoxdandır ki, ideal formasından uzaqdır. Şkodran Mustafi, Hektor Belyerin, Loran Koselni, Naço Monreal, Sead Kolasinas qeyri-sabit oyunları ilə yadda qaldılar. Sokratis Papastatopulos, Qranit Caka, Aaron Remzi, Lukas Torreira, Stefan Lixştayner ümumən yaxşı təsir bağışladılar. Pyer-Emerik Obomeyanq bu mövsüm komandanın bombardiri kimi tarixə düşdü. Aleksandr Lakazett isə ən vacib qollar vurmaqla komanda üçün çox faydalı bir oyunçuya çevrildi. Rəqibləri üçün daim təhlükə yaradan bu futbolçu uğurlu bir mövsüm keçirdi.

## "Həyatda olduğu kimi, futbol dünyasında da müəmmalar çoxdur"

"Mançester Yunayted" dünyanın ən sevilən komandalarından biridir. Bu komandanın çempionat marafonu gözlənilməz və təzadlı alındı. Joze Mouriyonun rəhbərliyi altında "qırmızı şeytanlar" çempionata çox uğursuz başladılar. Tezliklə məlum oldu ki, belə gedişlə onlar nəinki çempion adı uğrunda mübarizəyə qoşula bilməyəcəklər, heç ilk dördlüyə də daxil olmayacaqlar. Ole Qunnar Sulşerin müvəqqəti olaraq "Mançester Yunayted"ə rəhbərlik etdiyi dövrdən başlayaraq komanda ardıcıl qələbələr qazanmaqla hamını təəccübləndirdi. Bu uğurlu seriyanı görən klubun rəhbərliyi tərəddüd etmədən onu baş məşqçi postunun sükanı arxasına keçirdi. Maraqlıdır ki, bundan sonra komandanın enişi baş verdi və uğursuz oyunlar, məğlubiyyətlər bir-birini əvəz etməyə başladı. Sulşer, komandanın rəhbərliyi, azarkeşlər, mütəxəssislər nə baş verdiyini anlamırdılar. Halbuki heyətin tərkibi və oyunçuların səviyyəsi baxımından "Mançester Yunayted" heç də digər iddialı rəqiblərindən geri qalmırdı. Gəlin, komandanın heyətinə bir daha nəzər salaq: David De Hea, Eşli Yanq, Kris Smollinq, Antonio Valensiya, Markos Roxo, Pol Poqba, Antoni Marsial, Cessi Linqard, Xuan Mata, Ander Errera, Fred, Andreas Pereyra, Nemanya Matiç, Markus Reşford, Romelu Lukaku, Aleksis Sançes.

Əlbəttə, bu futbolçuların heç də hamısı əla və yaxud yaxşı formada deyildilər. Ancaq bununla belə yenə də bu komanda daha yüksək nəticə göstərmək üçün kifayət qədər potensiala malik idi. Hətta arada bir "qırmızı şeytanlar"ın ilk dördlüyə düşməsi təmin olunmuş kimi də görünürdü. Təbii ki, çempionat ərzində bütün oyunları ideal və yaxşı səviyyədə keçirmək mümkün deyildir. Sürprizlər, qəfləti, gözlənilməz uğursuzluqlar həmişə ola bilər. Amma bütün bunlar gözlənilmədən necə gəlir, bax, burada bir sıra amillərin ortaya çıxması nəzərə alınmalıdır.

O ki qaldı Sulşer "müəmması-na"... Buna da təəccüblənmək lazım deyildir. Həyatda olduğu kimi, futbol dünyasında da müəmmalar çoxdur. Baş çıxarılması, açması tapılmayan, izahsız görünən futbol müəmmaları...

## "Əzmkar komanda böyük nailiyyətlər qazanır"

İstedadlı futbolçu tezliklə komandada ulduz kimi parlayır. İlkay Gündoğan, Sterlinq, Kayl Uoker, Zinçenko, Foden, Bernardu Silva, Jesus, Oriqi, Matip, Van Deyk, Robertson, Veynaldum, Mane, Salah Firmino, Eriksen, Son Hın Min, Lukas Moura, Keyn, Dele Alli, Ruben Loftus-Çik, Kristinsen, Azar, Lakazet, Obomeyanq, Reşford, Linqard belələrindəndir.

Uğur qazanmağın bir yolu da əzmkarlıqdır. Əzmkar komanda mübarizəni mükəmməl şəkildə apardıqda daha böyük nailiyyətlər qazanır. Bəs bu mükəmməllik prinsipləri nədən ibarətdir? İlk növbədə sürət, fiziki hazırlıq, bütövlükdə peşəkarlıq. Premyer Liqanın üstünlükləri də məhz elə toxunduğumuz bu amillərdir. Komanda o vaxt bütöv ovqat yaradır ki, tamaşaçılar bütün oyunu ayaqüstə izləyirlər. İngiltərə Premyer Liqanın əksər oyunları bu mənzərədə keçir. Tamaşaçılar bir qayda olaraq yeni oyun tərzləri görmək istəyirlər. İngiltərə Premyer Liqası bu mövsüm tamaşaçılara, azarkeşlərə çoxlu yeniliklər bəxş etdi. İlk dəfə olaraq Çempionlar Liqası və Avropa Liqasının finallarında eyni ölkənin təmsilçiləri - ingilis klubları iştirak edəcəklər.

Bir məqamı da xüsusi ilə vurğulamaq istərdim ki, iddialı altı komandanın baş məşqçilərinin hamısı ("Mançester Yunayted"də Mourinyo nəzərdə tutulur) orijinal biçimdə olmaqla həmişə yeni və maraqlı fikirləri, ideyaları, sxemləri ilə sevilən tanınmış məşqçilər siyahısında özlərinə birdəfəlik yer alanlardır. Bu məşqçilərin hamısında yeniləşməyə meyllər güclüdür.

İngiltərə stadionları hər oyunda yenə də dolu olmaları ilə yadda qaldı. Hətta Premyer Liqanı tərk edəcəyi məlum olan komandaların arenaları da son turlarda belə tam azarkeş tutumu ilə diqqəti cəlb etdi.

Keçən il dünya çempionatında gənc heyətə malik İngiltərə yığmasının dördüncü yeri tutması haqlı olaraq böyük uğur kimi qiymətləndirildi. Əminliklə deyə bilərəm ki, növbəti Avropa və dünya birinciliklərində bu yığma komanda ən öndə olan favoritlər sırasında qəbul ediləcək. Ona görə ki, ildən-ilə səviyyəsi artan İngiltərə Premyer Liqası bu ölkənin yığma komandasına artıq indidən bütün xətlərdə əla futbolçular bəxş edib.

*(ardı var)*



Dünya_idmanı



## Döyüş 2020-ci ildə olacaq

Böyük Britaniya idmançısı Tayson Fyuri Deonti Uayldерlə baş tuta biləcək ikinci döyüşündən danışıb.

İdmançı deyib: "Bizim revanş döyüşümüz mütləq olacaq. Amma revanş döyüşü nə may, iyun, iyul, avqustda deyil, gələn ilin mart ayında təşkil olunacaq. Təşkilatçılar mənə belə deyiblər. O vaxta qədər bir az da hazırlaşaram".

Xatırladaq ki, tanınmış idmançıların ilk döyüşü heç-heçə başa çatıb.




## Dünya çempionatında iştirakçıların sayı azaldılacaq

Beynəlxalq Gimnastika Federasiyası (FİG) 2022-ci ildə keçiriləcək dünya çempionatından etibarən yarış iştirakçılarının sayını azaltmağa qərar verib. Bu barədə federasiyanın rəsmi saytında bildirilir.

Bu dəyişiklik bədii gimnastika və idman gimnastikası üzrə dünya çempionatına şamil ediləcək. Hazırda idman gimnastikasında kişi idmançıların sayı 208, qadın idmançıların sayı isə 201 nəfər təşkil edir.

Beləliklə, 2022-ci ildə keçiriləcək bədii gimnastika üzrə dünya çempionatında ümumilikdə, cəmi 105 gimnast mübarizə aparacaq. Bu dəyişiklikdən sonra DÇ-nin keçirilmə müddəti 15 gün deyil, 11 gündən ibarət olacaq.

## Ulduz basketbolçular birlikdə nahar ediblər



NBA-nın ulduz oyunçuları Lebron Ceyms ("Leykers"), Entoni Devis ("Nyu-Orlean") və Rassel Uestbruk ("Oklahoma-Siti") birlikdə nahar ediblər. Malibudakı restoranda yemək yeyən basketbolçular nahar süfrəsi arxasında xeyli söhbət ediblər.

Məlumat üçün bildirək ki, Etoni Devis təmsil etdiyi klubu tərk edərək, "Leykers"ə keçmək istəyir. Amma klubu mərkəz hücumçusunun transferini mövsümün sonuna kimi saxlayıb.

## Messi altıncı dəfə "Qızıl buts" mükafatına layiq görüldü

"Barselona" klubunun argentinalı hücumçusu Lionel Messi karyerasında altıncı dəfə "Qızıl buts" mükafatına layiq görülüb.

O, La Liqanın 2018-2019-cu il mövsümündə 34 oyunda 36 top vurub və 13 məhsuldar ötürmə edib. Hər iki göstərici üzrə birinci yeri tutan Messinin "Qızıl top" uğrunda mübarizədə ən yaxın rəqibi Fransanın "Paris Sen-Jermen" klubunun forvardı Kilian Mbappe olub. Fransalı hücumçu mövsümü 33 qolla başa vurub. Üçüncü yeri isə 26 qolla İtaliyanın "Sampdoriya" komandasının hücumçusu Fabio Kvalyarella tutub.

Xatırladaq ki, Lionel Messi 2010-cu, 2012-ci, 2013-cü, 2017-ci və 2018-ci illərdə də "Qızıl buts"a sahib olub. 2004-cü ildən "Barselona"nın heyətində çıxış edən Messi bu müddətdə 10 dəfə İspaniya çempionatının, 6 dəfə İspaniya Kral Kubokunun, 8 dəfə İspaniya Superkubokunun və 4 dəfə UEFA Çempionlar Liqasının qalibi adını qazanıb.



## Məsut Özil iftar süfrəsində

Türkiyədə səfərdə olan futbol ulduzu, "Arsenal" klubunun üzvü Məsut Özil ölkə Prezidentinin dəvəti ilə Dolmabaxça sarayında gənclər üçün təşkil edilmiş iftar süfrəsində iştirak edib.

NTV kanalının verdiyi xəbərə görə, Məsut Özil Rəcəb Tayyib Ərdoğanın Ramazan ziyafətində sevgilisi Əminə Gülşə ilə birgə iştirak edib. Məşhur türk futbolçusu Türkiyə liderini toyuna dəvət edərək şahid olmasını xahiş edib. Özilin toy mərasimi iyunun 7-də keçiriləcək.

Xatırladaq ki, 2018-ci ilin yayında - futbol üzrə dünya çempionatından öncə Məsut Özilin Rəcəp Tayyip Ərdoğanla foto çəkdirməsi və ona öz köynəyini bağışlaması alman fanatları tərəfindən tənqidlərə məruz qalmışdı. Futbolçu isə irqçi münasibətlə üzləşdiyini əsas gətirərək Almaniya millisindəki karyerasını başa vurduğunu açıqlayıb. Türkiyə lideri də bu ibrətamiz addımına görə Özilə "gözlərindən öpürəm" deyib.

## "Evinə salamat qayıtmaq istəyirsənsə..."



UFC üzrə sabiq dünya çempionu Maykl Bispinq Cənubi Afrika Respublikasında (CAR) olduğu müddətdə başına gələn qorxunc hadisədən danışıb.

"Biz dostlarla Çin restoranına getdik. Orada nahar etdik. Stoldan qalxanda gecə saat 03.00 olardı. Sağollaşdıqdan sonra qaldığım evə tək getdim.

Taksidən düşüb mehmanxanaya tərəf gedəndə 10-15 evsiz insanın məni dövrəyə aldıqlarını gördüm. Dedilər ki, evinə salamat qayıtmaq istəyirsənsə, pul kisəni bizə verməlisən. Mən etiraz edəndə, məni zorla maçına tərəf sürümək istədilər. Bir anda özümdə güc toplayaraq insan hələqəsini yararaq qaçmağa başladım. Əllərinə keçsəydim, mütləq məni soyduqdan sonra öldürəcəkdilər.

Mənə bir daha Keyptaun deməyin. Bura çox təhlükəlidir", - deyə dünya çempionu bildirib.

Qeyd edək ki, Maykl Bispinqin adı bu il mart ayının 17-də UFC Şöhrət zalına daxil edilib.

## Hakim oyun zamanı infarkt keçirib

Futbol dünyasında daha bir faciə yaşanıb.

Boliviyada oyun zamanı hakim infarkt keçirib. Çempionatın 25-ci turunda "Olueys Redi" - "Oriende Petrolero" matçı zamanı baş hakim Viktor Huqo Hurdado ürək tutması keçirib. 47-ci dəqiqədə yerdə qalan referi ilk müdaxilədən sonra ayılıb və dərhal xəstəxanaya çatdırılıb. Ancaq xəstəxanada ikinci dəfə infarkt keçirən 32 yaşlı hakim gözlərini əbədi yumub.

Matçın keçirildiyi "El-Alto" stadionu dəniz səviyyəsindən 4150 metr hündürlükdədir.

olimpnews.az - sizin saytınız






## Yanıq yerlərini qırmızı şapkası ilə örtüb

"Formula1" üzrə keçmiş dünya çempionu Niki Lauda vəfat edib.

Bu barədə avstriyalı idmançının ailə üzvlərinə istinadən "France Presse" məlumat yayıb.

İdmançı mayın 20-də 71 yaşında dünyasını dəyişib. Üçqat dünya çempionu olmuş Lauda 1976-cı ildə ağır qəzaya düşərək, çoxsaylı yanıq xəsarətləri almasına baxmayaraq, cəmi 6 həftə sonra yenidən idmana qayıdıb. O, yanıq xəsarətlərinin yerlərini qırmızı şapkası ilə örtüb.

Niki Lauda karyerasını bitirdikdən sonra idman meneceri, avtomobil yarışı üzrə ekspert, RTL telekanalının Almaniya üzrə icmalçısı, Formula 1 üzrə "Mercedes AMG"-nin Müşahidə Şurasının sədri olub.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49;
564-74-19